Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Doğma Azərbaycanımızın tarixini öyrənək

**Azərbaycan tarixinə dair ədəbiyyatın uşaq kitabxanalarında təbliği münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Doğma Azərbaycanımızın tarixini öyrənək:** Azərbaycan tarixinə dair ədəbiyyatın uşaq kitabxanalarında təbliği münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS - nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. R.Məmmədli ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. – Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. - 57 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Kitab təfəkkürün yorulmayan qanadı, zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü nəsillərdən – nəsillərə daşıyan fikir gəmisidir. Bu gəmi ilə səyahət edərkən mütaliə insanı kamilləşdirir, onun nitq və qabiliyyətini inkişaf etdirir, bilikli, söhbətcil, hazırcavab edir, insanı bəd, pis əməllərdən saxlayır. Müasir dövrümüzdə uşaq kitabxanalarında ən aktual problemlərdən biri Azərbaycan tarixinə dair ədəbiyyatın uşaq kitabxanalarında təbliği, vətənpərvərlik tərbiyəsidir. Müstəqil Azərbaycan dövlətinin qorunub saxlanılması, onun tərəqqisi naminə gələcəyin qurucuları olan bugünkü nəslin əsl vətəndaş kimi yetişməsində uşaq kitabxanalarının rolu böyükdür. Xalqımızın tarixi keçmişini mükəmməl öyrənməyə səy göstərən məktəbliləri torpaqlarımızın bütövlüyü və toxunulmazlığını, azadlığı və müstəqilliyini əks etdirən kitablarla tanış etmək, bu yolda qəhrəmancasına həlak olmuş şəhidlərimizin həyat və döyüş yollarını öz şərəfli ölümləri ilə ölümsüzlük zirvəsini fəth etmiş oğullarımızın qısa, lakin mənalı həyat yolları haqqında ətraflı məlumatlar vermək gələcəyin qurucularının vətənpərvərlik tərbiyəsində böyük əhəmiyyət kəsb edir. Vətənimizin tarixini bilmədən, onu sevmədən, qorumadan, ata-babalarımızın qəhrəmanlıq nümunələrini öyrətmədən vətənpərvər yetirmək olmaz. Vətənə məhəbbət insanın qəlbində yaşayan, onu vətənin çiçəklənməsinə təhrik edən ən güclü mənəvi-əxlaqi hissdir. Vətənpərvərlik tərbiyəsini kompleks şəkildə aparmaq üçün hər kəs bacardığını etməlidir. Tarixini, milli adət-ənənələrini gözəl bilməlidir. Azərbaycan dilində təmiz danışmağı ilə öyünməlidir. Başqalarına öz xalqını sevdirməyi bacarmalıdır. Yaxşı əsgər olması ilə fəxr etməlidir.

Bizim Vətənimiz Azərbaycandır. Onun başı ağ çalmalı uca dağlar, laləli çəmənlər, çiçəkli düzlər, meyvəli bağlar, pambıq, taxıl sərvətli torpaqlardır. Vətən uzaq və qəhrəman keçmişimiz,

bu günümüz, gələcəyimizdir. Uzaq və qəhrəman keçmişimiz sal qayalar üzərindəki silinməz izlərdir. Tomris mərdliyidir, Cavanşir yenilməzliyidir, Nizami poeziyasıdır, Dədə Qorqud hikmətidir, Nəsirəddin Tusi və Yusif Məmmədəliyev elmidir, Füzuli məhəbbətidir, Koroğlu cəngidir, Xətai qılıncıdır, Babək harayıdır, Nəbi iradəsidir, Məhəmməd Əmin Rəsulzadə dönməzliyi, Heydər Əliyev qətiyyətidir.

Xalqımızın mədəni inkişafında böyük rol oynayan məbədlərdən biri də uşaq kitabxanalarıdır. Uşaq kitabxanaları gənc nəslə mədəni xidmət göstərməyi, məktəbli oxucuların mütaliəsinə düzgün rəhbərlik etməyi, onlarda vətənpərvərlik, cəsurluq, doğruculuq, ləyaqət və bu kimi gözəl hisslər tərbiyə etməyi qarşısına məqsəd qoymuşlar. Hamımıza məlumdur ki, Azərbaycan tarixinə dair ədəbiyyatın uşaq kitabxanalarında təbliği oxucu biliyinin zənginləşməsində böyük rol oynayır. Gənc nəslin hərtərəfli inkişaf etməsi, mənəvi cəhətdən gözəl olması üçün məhz uşaq ədəbiyyatı ilə yanaşı, Azərbaycan tarixinə dair ədəbiyyatın da mütaliəsi zəruridir. Kitabxanaçılara təqdim edilən bu vəsaitdə əsas məqsəd yeniyetmə və gənclərə tariximizi daha yaxşı mənimsətmək üçün tarixə dair ədəbiyyatı müxtəlif kütləvi tədbirlər üsulu ilə təbliğ etməkdir. Metodik vəsait iki bölmədən ibarətdir. I bölmə “Tarixə qısa səyahət”, II bölmə isə “Tarixə dair ədəbiyyatın təbliğat metodu” adlanır. I bölmədə Azərbaycan tarixi səhnəsində baş verən əsas əlamətdar tarixi hadisələr haqqında ümumi məlumat verilir. II bölmədə əsasən tarixə dair ədəbiyyatın kitabxanalarda kitabxana qaydası ilə təbliğat metodu təqdim edilir. Vəsaitdə tarixə dair elmi və bədii ədəbiyyatdan geniş istifadə edilmişdir ki, bu da məktəblilərin tariximizi daha dərindən bilməsi üçün əlverişli bir vasitədir. Metodik vəsaitdən uşaq, məktəb, gimnaziya, lisey, kollec, kütləvi kitabxanaların kitabxanaçıları istifadə edə bilər.

## I Bölmə: Tarixə qısa səyahət

XX əsr xalqımız üçün müsibətli əsr olubdur. Gərək onu doğru, dəqiq, nə cürə, necə olubsa, elə də yazaq. Bunların hamısı həm xalqımızın özünü tanıması, həm də bugünkü siyasətimiz üçün lazımdır. İndi qarşıda duran ən mühüm vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX əsr tarixinin yazılmasıdır.

**Heydər Əliyev,**
*ümummilli lider*

Azərbaycan Yer kürəsinin ən qədim tarixə və maddi-mədəni irsə malik olan məskənlərindən biridir. Arxeoloji qazıntılar nəticəsində əldə edilən müxtəlif maddi-mədəni abidələrin, yazılı qaynaqların, müxtəlif dövrlərdə dünya alimlərinin və tarixçilərinin yazdıqları əsərlərdə Azərbaycan haqqında deyilənlərin müqayisəli şəkildə öyrənilməsi Azərbaycan tarixinin daha əsaslı şəkildə və daha dərindən işıqlandırılmasına imkan verir. Sovet hakimiyyəti dövründə Azərbaycanın qədim tarixi üzrə tədqiqat işi aparılarkən bu dövrə birtərəfli yanaşılırdı. Belə ki, Azərbaycanın qədim dövlətləri olan Manna, Atropatena, Albaniya tarixi, ərazilərimizdə yaşayan qədim sakinlərin etnik tərkibi, etnogenezi, sosial-iqtisadi, siyasi və mədəni tarixi arxa plana çəkilirdi və lazımınca işıqlandırılmırdı. Lakin bütün qeyri-müəyyənliklərə, çətinliklərə baxmayaraq, Azərbaycanın tarixi qədimliyi, xalqının etnogenezi konsepsiyası müəyyən şəkildə öyrənilərək, ümumiləşdirilərək tarix elmimizdə öz əksini tapmışdır. Azərbaycan tarixi dedikdə gözlərimiz önünə sasanilərin və ərəblərin Ön Asiyada hakimiyyət uğrunda apardıqları döyüşlərin nəticəsində Azərbaycan ərazisində baş verən tarixi proseslər, Ərəb Xilafətinin zəiflədiyi dövrdə yaranan Azərbaycan feodal dövlətlərinin tarixi, Böyük Səlcuq imperiyasının tərkibində, sonra isə Atabəylər dövlətinin hakimiyyəti altında dövrün ictimai, iqtisadi, mədəni və maddi həyatı kino lenti kimi gəlir. Bu dövrdə Azərbaycan ərazisində

cərəyan edən dil, din, ərazi, mədəniyyət və iqtisadi əlaqələr vəhdəti zəminində türkdilli Azərbaycan xalqının və dilinin formalaşması prosesi başa çatır. XIII əsrdə monqol əsarəti və onun nəticələri, XIV əsrdə Azərbaycanın iki qüdrətli sərkərdənin – Teymurun və Toxtamışın müharibə meydanına çevrilməsi, XV əsrdə Ağqoyunlu və Qaraqoyunlu dövlətlərinin yaranması və süqutu tarixi öz əksini tapmışdır. Şah İsmayıl Xətainin qurduğu Səfəvilər dövlətinin Azərbaycanın tarixində müstəsna yeri işıqlandırılır, belə ki, tariximizdə ilk dəfə olaraq ölkəmizin şimal və cənub əraziləri Azərbaycan dövlətinin sərhədləri daxilində birləşdirilir, Azərbaycan dili dövlət dili səviyyəsinə qaldırılır. XVIII əsrin ortalarında bir-biri ilə rəqabət aparan müstəqil xanlıqların meydana gəlməsi, İran və Rusiyanın Azərbaycana qarşı qəsbkar niyyətləri, xalqımızın xarici işğalçılara qarşı azadlıq mübarizəsi, eləcə də bu dövrün ictimai-iqtisadi, mədəni həyatı ətraflı şərh olumuşdur. XIX əsrin əvvəllərindən Şimali Azərbaycanın Çar Rusiyası tərəfindən istilası, xalqın ona qarşı mübarizəsi, dövrün sosial-iqtisadi, siyasi və mədəni tarixi araşdırılır. XIX əsr kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar sənayedə və kənd təsərrüfatında baş verən dəyişikliklər, ictimai-siyasi hadisələr, bir millət kimi xalqımızın təşəkkül tapması, milli şüurun yüksəlişi və s. XX əsr isə tarixdə xalqımızın milli-azadlıq mübarizəsinin yüksəlişi, milli-siyasi təşkilatların daha da fəallaşması, mənfur çar imperiyası süquta uğradıqdan sonra milli dövlətimiz olan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti ilə yadda qalmışdır. Bu dövr həm də Sovet hakimiyyətinin qurulması, sənayeləşdirmə və kollektivləşdirmə, idarəetmədə zorakılıq, inzibati-amirlik sistemi, kommunist rejimi dövrü kimi də yadda qalmışdır. XX əsr Azərbaycana ikinci dəfə müstəqillik əldə etmək şansını da verdi. Ulu öndər Heydər Əliyevin və onun davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xidmətləri sayəsində milli dövlətçiliyimizin yaradılması, qorunması,

möhkəmləndirilməsi, sosial-iqtisadi və mədəni inkişafı, Azərbaycanın dünya birliyinin üzvü olaraq tanınması, bu regionda söz sahibi olması buna sübutdur.

Azərbaycan tarixi elmi baxımdan XIX əsrdən öyrənilməyə başlanılmışdır. Həmin dövrdə ən qədim daş dövründən orta əsrlərədək olan dövrə aid müxtəlif arxeoloji abidələr aşkar edilmişdir. Arxeoloji abidələr əsasında Azərbaycanda ibtidai icma quruluşunun ilkin ünsürlərinin yaranması, inkişafı və süqutunun şərtlərindən səbəblər, cəmiyyətin iqtisadi, siyasi, həyati, dünyagörüşü, ətraf aləmə münasibəti, dini ayinləri, dəfn qaydaları və s. məsələlər tədqiq olunmuşdur. Şimali Azərbaycanın qədim tarixi, iqtisadiyyatı, etnik tərkibi, əhalinin dili və dini təsvirləri, tarixi, coğrafiyası, təsərrüfat həyatı, əhalinin antropologiyası, xüsusiyyətləri ayrı-ayrılıqda və cəm halında bir sıra tədqiqatçıların, o cümlədən K.İ.Yampolskinin, K.H.Əliyevin, R.M.Qasımovanın araşdırılmasında tədqiq olunmuşdur. Türk dilləri qrupuna mənsub dildə danışan azəri türklərinin yaşadığı ərazi Azərbaycan adlanmışdır. Tarixən Azərbaycan şimalda Dağıstan, qərbdə Gürcüstan, cənub-qərbdə Ermənistan, şərqdə Xəzər dənizi, cənubda Mərkəzi İranla həmsərhəd olmuşdur. Araz çayı Azərbaycanın ərazisini iki hissəyə bölmüşdür. Arazdan başqa şimalda Kür, cənubda isə Qızılüzən Azərbaycanın ərazisindən axan ən böyük çaylardır. İndi kontinental iqlimə malik olan Azərbaycanda ən qədim zamanlarda rütubətli, isti və quru iqlim olmuşdur. Azərbaycanın flora və fauna aləmi xeyli zəngin olmuşdur. Həmçinin Azərbaycan öz faydalı qazıntıları ilə fərqlənir. Mis, dəmir, qurğuşun, sink, qiymətli metallardan qızıl, gümüş minerallardan müxtəlif rəngli çaxmaq daşı, yasəmən daşı, mərmər və s. daş və duz yataqları vardır. Çox nadir hallarda bu və ya digər ölkəyə qədimdə şamil edilən adlar müasir dövrə kimi öz varlığını saxlaya bilmişdir. Qədim dövrlərdə Azərbaycanın yığcam, bütöv bir əraziyə şamil edilən coğrafi adı olmamışdır. Ölkəyə şamil edilən bu və ya digər ad müxtəlif amillər əsasında

meydana gəlirdi. Müvafiq surətdə Kuti və Lulubi etnik adlarının əsasında Azərbaycanın qərb hissəsi Kutina, Urmiya gölünün qərb hissəsi isə Lulubbium adlandırılmışdır. E.ə.II minillikdə ölkənin yığcam adları tayfa adları ilə əvəz olunmağa başlamış və turukki tayfasının adına əasən Urmiya gölü hövzəsinin bir hissəsi Turukkum adlanmışdı. Turukkum ölkə adı da Azərbaycanın "dağ", "dağlıq ölkə" hissəsinə şamil edilirdi. Antik qaynaqlar Azərbaycanın cənub hissəsini Atropatena, şimal hissəsini isə Albaniya adlandırmışlar. İlk dəfə e.ə. I və eramızın I əsrlərində yaşamış Strabon irandilli etnosların ənənəsinə əsaslanan məlumatlardan istifadə edərək, ölkəni Atropatın adı ilə bağlamışdır. Suriya və Bizans qaynaqlarında Adarbaqan, orta əsr qaynaqlarında Aderbican, Aderbijan və s. formalarda əks olunmuşdur. Beləliklə, mixi qaynaqlardakı Andirpatianı məskən adını "Azərbaycan" adının ən qədim və ilkin forması kimi qəbul etmək olar.

## Azərbaycan xalqının və Azərbaycan dilinin təşəkkülü

Dünyanın başqa xalqları kimi, Azərbaycan xalqının da təşəkkülündə dörd əsas şərt vacib sayılır:
1. Ərazi birliyi;
2. Dil birliyi;
3. Mədəniyyət vahidliyi;
4. Məhəlli-iqtisadi əlaqələrin mövcudluğu.

Təbii ki, bu şərtlərin yetişməsi üçün əsrlərlə vaxt lazım idi. Azərbaycan xalqı qədim çağlardan çox böyük torpaqları əhatə edən böyük bir ərazidə formalaşmışdır. Bu ərazinin sərhədləri cənubda Qızılüzən çayından başlayıb, şimalda Dərbənd də daxil olmaqla Qafqaz dağlarına qədər uzanırdı. XIX əsrə qədər qədim Oğuz yurdu olan indiki Ermənistan - İrəvan Azərbaycanın torpaqları idi. Azərbaycan qədimdən türk yurdudur və türklər bu torpağın köklü əhalisidir. Azərbaycan xalqının dili türk dilləri ailəsinin Altay budağının Oğuz qrupuna daxildir. Azərbaycan

ərazisində başqa dildə danışan etnoslar da yaşayırdılar. Həmin etnosları bir-birinə bir çox ümumi cəhətlər bağlayır. Bunlardan biri də onların eyni ideologiyada - vahid dində birləşməsidir. Digər birləşdirici amil onların xarici hücumlara qarşı mübarizədə birlikdə müqavimət göstərmələridir. İslam dini türk və qeyri-türk etnoslarının vahid xalq kimi formalaşmasında və ümumi mənəvi-mədəni dəyərlər əsasında birləşməsində misilsiz rol oynamışdır.

VII-VIII əsrlərdə Azərbaycan xalqının formalaşması üçün əsas şərtlərin hamısı meydanda idi. Bu dövrdə Azərbaycan xalqı və onun ana dili olan türk dili təşəkkül tapmışdır. 1300 il bundan əvvəl türklərin yaşadıqları bütün torpaqlarda-Dəmirqapı Dərbənddən cənub torpaqlarına, qərbdə Anadolu torpaqlarına, Diyarbəkirə, Xəzərdən Qara dəniz sahillərindəki Abxaz elinə və Trabzona qədər geniş ərazidə yayılmış "Kitabi-Dədə Qorqud" dastanı xalqımızın ana qaynağıdır. Dastan onun geniş ərazidə vahid dildə-türk dilində danışan böyük bir xalqın-Azərbaycan xalqının yaşadığını sübut edir.

"Kitabi-Dədə Qorqud" dastanının dili təmiz türk dilidir və oğuz türkləri məhz bu dildə danışırdılar. Maraqlıdır ki, bu dastanda olan 4530 sözdən 4044-ü, yəni, 90%-ə yaxını türk sözüdür. Halbuki XVI-XIX əsrlər Azərbaycan ədəbi dilinin görkəmli nümayəndələri olan Şah İsmayıl Xətai, Məhəmməd Füzuli və Seyid Əzim Şirvaninin "Divan"larında sözlərin yarıdan çoxu ərəb və fars sözləridir. Dədə Qorqud dastanının yayıldığı dövrdə (VII-VIII əsrlərdə) Azərbaycan əhalisinin dili sonrakı çağlardan daha təmiz olması ilə seçilirdi.

Hər bir xalq müəyyən tarixi ərazidə yaranmışdır. Eləcə də Azərbaycan türkləri. Heç bir xalq indi yığcam yaşadığı ərazidən kənarda meydana gəlməmişdir. Azərbaycan xalqının bir xalq kimi formalaşdığı ərazi Azərbaycan olmuşdur. Azərbaycan dili türk dilləri qrupuna daxildir. Azərbaycan türkləri erkən dövrdən türk dilində danışmış və heç bir başqa xalqdan dönməmişlər.

Tarix boyu azəri türkləri farsmənşəli və Qafqazdakı digər etnoslarla qonşu olmuş, onların müəyyən qismi Azərbaycanda məskən salmış və xalqımızla bilavasitə ünsiyyət yaradaraq biri digərinə qarşılıqlı mədəni təsir göstərmişdir. Azərbaycan əhalisi – istər türklər, istərsə də digər etnoslar atəşpərəstlik və bütpərəstlik dini etiqadlarını saxlayır, xarici işğallara qarşı birgə müqavimət göstərir.

Qədim dövrdə erkən Azərbaycan dilinin leksikası Azərbaycanın bu və ya digər yer və şəxs adlarında öz əksini tapmışdır. Alban tarixçisi Moisey Kalankatlinin "Alban tarixi" əsərində bir sıra türk sözləri ilə ar / ayr və aran sözləri "ər kişi" mənasında verilmişdir ki, bu da həm formaca, həm də mənaca qədim türk ər/ərən sözüdür. Deməli, azərbaycanlıların dilində ər və ərən sözü eyni mənanı kəsb edir. Yaqut Həməvinin "Əbu Zəkəriyyə Ət-Təbrizi barədə" hekayəsində azəri dili yad edilir və bu "Azərbaycan əhalisinin dili" kimi göstərilmişdir.

*Azərbaycanın tarix səhnəsinə qızıl hərflərlə yazılmış bir sıra tarixi dövrlər mövcud olmuşdur. Həmin tarixi dövrlərə qısa bir nəzər salaq.*

## Cavanşirin Albaniyanın müstəqilliyini qoruyub-saxlaması

Mehranilər sülaləsindən olan Cavanşir dövlət xadimi, sərkərdə olmuşdur. Cavanşir hələ atasının sağlığında ölkənin idarə olunmasında yaxından iştirak etmişdir. Cavanşir Sasani ordusunun tərkibində ərəblərə qarşı vuruşan Alban hərbi hissəsinin komandanı kimi döyüşlərdə fərqlənmişdi.

VII əsrin ortalarından başlayaraq ərəb işğalçıları Sasani imperiyasına, bu imperiyanın tərkibində olan ölkələrə, o cümlədən Azərbaycana ardı-arası kəsilməyən hücumlar etməyə başladılar. Belə bir vaxtda Alban hökmdarı III Yezdəgirdin çağırışına cavab olaraq oğlu Cavanşiri onun köməyinə göndərdi. Cavanşir başçılıq etdiyi Alban döyüşçüləri ilə birgə Sasani qoşunlarının tərkibində ərəblərə qarşı vuruşurdu. Doğrudur,

ərəblər bu döyüşdə Sasaniləri məğlubiyyətə uğratdı. Lakin buna baxmayaraq, Sasani hökmdarı Cavanşirin qəhrəmanlığını yüksək qiymətləndirərək onu Albaniyanın sərkərdəsi təyin etdi. Cavanşir Albaniyaya qayıtdıqdan sonra öz ölkəsinin qüdrətini artırmağa fikir verdi. Lakin ərəblərin ardı-arası kəsilməyən hücumlarına davam gətirməyən Sasani qoşunları geri çəkilərkən Albaniya torpaqlarının əhalisini incidir, mal-qaranı qarət edib aparırdılar. Bundan qəzəblənən Cavanşir gürcülərlə ittifaq bağlayaraq İran qoşunları üzərində iki dəfə qələbə çalmağa müvəffəq oldu. Bunu görən qonşu dövlətlərin başçıları artıq siyasət aləminə qüdrətli bir hökmdarın, sərkərdənin çıxdığını dərk edirdi. Cavanşir öz dövlətinin mənafeyi və gələcəyi naminə Bizans kimi güclü bir imperiya ilə ittifaq bağladı və qonşu dövlətlərlə diplomatik münasibətləri möhkəmləndirdi. Cavanşir dəfələrlə xəzərləri də geri çəkilməyə məcbur etdi. O, ölkəsini Ərəb xilafətinin təhlükəsindən qurtarmaq naminə Əməvi hökmdarı I Müaviyə ilə danışıqlar aparmaq üçün Dəməşqə getdi. Dəməşq sülhünə görə Albaniya daxili müstəqilliyini saxlaya bildi. 670-ci ildə Cavanşir Xilafət və Bizans arasında danışıqlarda iştirak etmək üçün yenidən Dəməşqə dəvət olundu. Bu danışıqların nəticəsində Albaniyadan alınan vergi və xəracın miqdarı üç qat azaldıldı. Sünik knyazlığı Cavanşirə tabe edildi. Mərkəzi hakimiyyət əleyhinə çıxan, iri feodallara qarşı amansız mübarizə aparan Cavanşir narazı feodallar tərəfindən sui-qəsd nəticəsində öldürüldü.

Cavanşirin hakimiyyəti dövründə Albaniyada iqtisadi həyat nisbətən dirçəlmiş, elm və mədəniyyət inkişaf etmişdir. Onun sarayında xeyli alim, şair, memar və s. şəxslər toplanmışdır. Alban tarixinin tədqiqinə də həmin dövrdə başlanılmışdır. Alban şairi Davdağ Cavanşirin ölümü münasibətilə elegiya yazmışdır. Mehdi Hüseynin “Cavanşir” pyesi də Cavanşirə həsr edilmişdir.

## Bir əlində qılınc, bir əlində qələm olan sərkərdəmiz

Səfəvilər dövrü Azərbaycan tarixinin qızıl səhifələrindən sayılır. Ən başlıcası isə bu dövrdə elm və mədəniyyətin yüksək inkişafı üçün münasib ictimai-siyasi şərait yaranır. Səfəvi mədəniyyətinin inciləri təkcə Azərbaycan və İranla məhdudlaşmayıb bütün müsəlman dünyasını əhatə edir. Səfəvilərin hakimiyyətinin ilkin çağları bu baxımdan xüsusilə seçilir.

Ağqoyunluların zəiflədiyi bir şəraitdə ölkədəki pərakəndəliyi aradan qaldırmaq və Azərbaycan torpaqlarını siyasi cəhətdən birləşdirmək zərurəti yaranmışdı. Belə bir şəraitdə Səfəvilər siyasi meydana çıxdılar. 1499-cu ildə Lahıcanı tərk edən Şah İsmayıl Xətai Ərdəbilə, sonra tərəfdarlarının daha çox olduğu Ərzincana getdi. Şah İsmayıl ilk növbədə Şirvanşaha zərbə vurmağı qərara aldı. 1500-cü ilin payızında Şamaxını tutan Şah İsmayıl Gülüstan qalasının yaxınlığındakı Yabanı adlı yerdə Fərrux Yasarı məğlub etdi. Gülüstan qalasını almaq üçün qayıdan Şah İsmayıl, Əlvənd Mirzənin Təbrizdən qoşunla yola düşməsi xəbərini alıb, öz sərkərdələrindən "Siz Azərbaycan taxtını, yoxsa Gülüstan qalasını istəyirsiniz?" - deyə soruşduqda, onlar "Azərbaycanı istəyirik"- cavabını verdilər.

1501-ci ilin ortalarında Naxçıvan bölgəsindəki Şərur düzündə Əlvəndlə Şah İsmayıl arasında döyüş qızılbaşların qələbəsi ilə başa çatdı. Əlvənd Ərzincana qaçdı. Ağqoyunluların birinci qoluna son qoyuldu. 1501-ci ilin payızında Təbrizə daxil olan Şah İsmayıl özünü şah elan etdi və Səfəvilər dövlətinin (1501-1524) əsasını qoydu. I Şah İsmayıl (1501-1524) öz adına xütbə oxutdurdu və pul kəsdirdi. Dövlətin paytaxtı Təbriz idi. Dövlətin əsas ərazisini Azərbaycan torpaqları, əhalinin böyük hissəsini isə Azərbaycan türkləri təşkil edirdi. Ordu qızılbaş türk soylarından təşkil olunmuşdu. Hərbi komandanlıq, maliyyə idarələri, vilayətlərin idarəçiliyi və şah sarayında bütün vəzifələr Azərbaycan əyanlarının əlində idi. Dövlət işlərində, sarayda,

qoşunda və qismən diplomatik yazışmalarda Azərbaycan türk dili işlənirdi. Azərbaycan ədəbi dilinin formalaşmasında Şah İsmayılın böyük rolu oldu. Səfəvi dövlətinin yaranması Azərbaycan tarixində mühüm hadisə olub, ölkənin iqtisadi və mədəni inkişafına şərait yaratdı, yadellilərə qarşı xalqımızın mübarizə aparmasını asanlaşdırdı. Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirməklə Səfəvilər tariximizdə misilsiz rol oynadılar. Şah İsmayıl Xətai dövrü, həmçinin Azərbaycan ədəbiyyatının, aşıq şeirinin, rəssamlığın, xalça sənətinin çiçəkləndiyi zamandır, intibah dövrüdür. Şah İsmayılın ədəbi yaradıcılığında orta əsr Azərbaycan ədəbiyyatının inkişafında yeni bir mərhələ təşkil edir. O, "Xətai" təxəllüsü ilə ana dilimizdə şeirlər yazıb. Onun çoxsaylı qəzəlləri, "Nəsihətnamə", "Dəhnamə" poemaları bu gün də sevilə - sevilə oxunur. Özündən əvvəlki ədəbi irslə möhkəm bağlı olan, təsir qüvvəsini və qidasını xalqdan alan Şah İsmayıl Xətai ozan-aşıq sənətinə hörmətlə yanaşaraq, klassik şeir formaları ilə yanaşı, xalq şeirinin müxtəlif şəkillərində dillər əzbəri ola biləcək əsərlər yaradıb. Sadəlik, aydınlıq, səmimilik, həyata, onun gözəlliklərinə dərindən bağlılıq Xətai poeziyasını daha oxunaqlı edir. Klassik üslub və ozan-aşıq üslubu Xətai şeirinin qoşa qanadı olub, özünü üzvi bir vəhdət halında bu yaradıcılıqda göstərirdi. Şairin xalq şeiri üslubunda yazdığı əsərləri öz sənət təsdiqini daha çox aşağıdakı şeirdə tapır:

Könül, nə gəzirsən seyran yerində,
Aləmdə hər şeyin var olmayınca,
Olur-olmaza dost deyib gəzmə,
Bir əhdinə bütün yar olmayınca,

Gövhərim keçməyən yerdə
Satma qardaş, kərəm eylə,
Ləl daşını çay daşına
Qatma qardaş kərəm eylə.

Cavan, sağlam, ədalətli və müdrik hökmdar, incə ruhlu şair, nəhayət, əsrlərin üzərinə kölgə sala bilməyəcəyi bir şəxsiyyət... Belə bir dahinin məhz Azərbaycan xalqına mənsub olması təsadüfü deyil. Bu xalq tarix boyu belə şəxsiyyətlər yetirib və Allahın yardımı ilə hələ neçə-neçə dahilərə beşik olacaq.

## Tariximizin ən parlaq səhifələrindən biri olan Azərbaycan Demokratik Respublikası

Azərbaycan dövlətçilik tarixində əlamətdar yer tutan, onun şərəfli səhifəsini təşkil edən Xalq Cümhuriyyətinin qurulmasından 100 il ötür. Müsəlman şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət modeli idi. Azərbaycan Demokratik Respublikası xalqımızın tarixi-siyasi və mənəvi həyatında dərin iz buraxıb. Xalqın milli şərəf və namusunun alçaq düşmən tərəfindən tapdalanmasına yol verməmək üçün türk oğlu daha fəal mübarizələrə atılmışdır. Bakının azad edilməsinin bir illiyi münasibətilə Məhəmməd Əmin Rəsulzadənin yazdığı "Haqq yerini tutan gün" adlı məqaləsi ibrətamizdir: "Mən Azərbaycanın həyat qabiliyyətinə inanıram. Azərbaycan türkü mayın 28-də istiqlalını elan etmiş, sentyabrın 15-də qəsbkarların əlində inildəyən paytaxtını xilas etmişdir. Mayın 28-i Azərbaycan Cümhuriyyət tarixinin ibtida günü isə, sentyabrın 15-i o ibtida qədər qiymətlidir. Bakı Azərbaycan üçün sadə bir paytaxt deyil, adətən əfsanələrdə söylənən bir "can şüşəsi" olduğunu nəzərə alsaq, həqiqi istiqbal gününün sentyabrın 15-i olduğunu qəbul etməliyik. Mayın 28-i böyük bir haqq elan olunmuş, sentyabrın 15-də isə bu haqq yerini tutmuşdur. Hər millət müstəqil yaşaya bilər. Azərbaycan xalqı öz istiqlaliyyətini həyəcanlı bir şəkildə qarşılamış oldu. Öz təbiətinə və potensial sərvətlərinə görə bənzərsiz olan bu diyar yerin təkində fəvvarələr və alovlar saxladığı kimi, öz vətəndaşlarının qəlblərinin ən dərin guşələrində də elə bir

yaradıcılıq ruhu yaradır ki, bu yaradıcılıq ruhu türk xalqının azad inkişafı şəraitində, mənim dərin əqidəmə görə, dünyaya orijinal bir mədəniyyət nümunəsi bəxş edəcəkdir... Müstəqil həyatın bir ili ərzində türk xalqının milli mənlik şüurunun xeyli yüksəlməsi ciddi əsas verir, belə hesab edim ki, gümanım məni aldatmayacaqdır. Unutmayaq ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan daha çətindir. Hər birimiz xalqımızın bu tarixi nailiyyətini göz bəbəyi kimi qorumalı, istiqlal yolumuzun əbədiliyi naminə, dövlətçiliyimizi, doğma Azərbaycanımızın beynəlxalq aləmdə nüfuzunu artırmaq üçün səylər göstərməli, əsl vətəndaş fəallığı və təəssübkeşliyi nümayiş etdirməliyik".

Buradan da görünür ki, milli özünütəsdiq uğrunda apardığı ölüm-dirim mübarizəsində Azərbaycan xalqı türklərə nə dərəcədə minnətdardır.

## Azərbaycanın dövlət müstəqilliyinin bərpası

Sovet quruluşu dağıldıqdan sonra mühafizəkar qüvvələrin 1991-ci ilin avqustunda Moskvada dövlət çevrilişinə cəhdi Azərbaycanda siyasi vəziyyəti daha da gərginləşdirdi. Azərbaycana diz çökdürmək üçün təzyiqlərin artdığı bir vaxtda Moskvanın himayəsi ilə 1991-ci ilin əvvəllərində qondarma "Dağlıq Qarabağ Respublikası"nın yaradıldığı elan olundu.

1991-ci il avqustun 30-da çağırılmış Ali Sovetin növbədənkənar sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul etdi. Xalqın təkidi ilə H.Əliyev 1991-ci ilin sentyabrın 3-də Naxçıvan Ali Məclisinə sədr seçildi. 1991-ci il sentyabrın 14-də Azərbaycan KP-nın XXXIII fövqəladə qurultayında bu təşkilat özünü buraxdı. Ali Sovetin 1991-ci il oktyabrın 18-də çağırılmış sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Akt"ını qəbul etdi. Bununla da 1920-ci ilin aprel ayında itirilmiş Azərbaycan dövlətçiliyi bərpa olundu. Azərbaycan Respublikasının dövlət müstəqilliyini ilk tanıyan

dövlət Türkiyə oldu. Sonra Ruminya, Pakistan, İsveçrə, İran, ABŞ, Rusiya və s. dövlətlər dövlət müstəqilliyimizi tanıdılar. Təzəcə yaranmış respublikada özünü büruzə verən özbaşınalıq, hakimiyyətsizlik və iqtisadi böhran şəraitində xalqın qabaqcıl qüvvələrinin başçılığı ilə ölkədə Qurtuluş hərəkatı başladı. Xalq böyük fəlakətin yaxınlaşdığını hiss etdi və bütün ümidini Heydər Əliyevə bağladı. Heydər Əliyev 1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Andiçmə mərasimini oktyabrın 10-da keçirən Heydər Əliyev ölkənin ərazi bütövlüyünü, tam suverenliyini təmin edəcəyini, əhalinin rifahını yaxşılaşdıracağını xalqa bəyan etdi. 1993-cü il noyabrın 2-də prezident Heydər Əliyev xalqı Vətənin müdafiəsinə çağırdı. Könüllülərdən ibarət ordu cəbhəyə göndərildi. Azərbaycanın siyasi tarixində, dövlət müstəqilliyinin qorunub saxlanılmasında, dünya iqtisadiyyatı ilə sıx inteqrasiya prosesində  Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Belə ki, 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konustitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul olundu. 1995-ci ilin noyabrın 12-də ölkəmizdə ilk demokratik parlament seçkiləri keçirildi. 1995-ci ildə Azərbaycan Gənclər Təşkilatı Milli Şurası, Respublika Uşaq Təşkilatı yaradıldı. 1996-cı-il aprelin 2-də gənclərin I Respublika forumu keçirildi. Həmin gün tarixə Gənclər Günü kimi daxil oldu. 1998-ci ilin fevralında "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi haqqında" Prezident fərman verdi. 1998-ci ilin avqustunda "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Prezident fərmanı ilə senzura ləğv edildi. 1998-ci ildə Respublikada ölüm cəzası tamamilə ləğv edildi. Bununla da Azərbaycan Şərqdə ölüm cəzasının ləğv edildiyi ilk ölkə oldu. 1998-ci ildə Konstitusiya Məhkəməsi yaradıldı. 1998-ci il oktyabrın 11-də Heydər Əliyev yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi. 1999-cu il dekabrın 12-də Azərbaycan Respublikaslnda ilk

bələdiyyə seçkiləri keçirildi. 2001-ci il dekabrın 28-də Milli Məclis "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında" Konustitusiya qanunu qəbul etdi. Beləliklə, demokratik dövlətdə insan hüquq və azadlıqlarının müdafiəçisi olan Ombudsman təsisatı yaradıldı. 2000-ci ildə hakimlərin xüsusi imtahandan keçməsi təcrübəsi tətbiq olundu. 2000-ci ildə respublikada rəsmi qeydə alınmış 34 partiya, 1000-dən çox ictimai birlik mövcud idi ki, bu da demokratik dəyərləri göstərən mühüm faktorlardandır. 2002-ci il avqustun 24-də Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsinə dair referendum keçirildi. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev tərəfindən 2003-cü il fevralın 17-də "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-20012-ci illər)" təsdiq edildi. 2003-cü il avqustun 4-də İlham Əliyev Azərbaycan Respublikasının baş naziri təyin olundu. 2003-cü il oktyabrın 15-də Heydər Əliyev siyasi məktəbinin yetirməsi və davamçısı olan İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. 2003-cü il dekabrın 12-də ümummilli lider Heydər Əliyev vəfat etdi. Çoxəsrlik dövlətçilik tariximizin son 30 illik dövrü görkəmli dövlət xadimi Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Onun respublikaya rəhbərlik etdiyi dövrdə iqtisadiyyatın, elmin və mədəniyyətin inkişafında böyük nailiyyətlər qazanılmışdır. Hazırkı mürəkkəb şəraitdə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Heydər Əliyevin siyasi xəttini və ideyalarını uğurla davam etdirir. 2005-ci ilin aprelində Milli Məclis "Heydər Əliyev" ordeninin təsis edilməsi haqqında qanun qəbul etdi. "Heydər Əliyev" ordeni ilə ilk dəfə Prezident İlham Əliyev və türk dünyasının görkəmli xadimi İhsan Doğramacı təltif olundu. Azərbaycan tarixi səhnəsində baş verən bütün bu hadisələri bilmək hər bir məktəblinin üzərinə düşən əsas vəzifədir.

## II Bölmə: Tarixə dair ədəbiyyatın təbliğat metodu

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişini obyektiv mənzərəsini yaratmaq imkanı əldə etdi. Uzun illər gizli saxlanılan, üzərində qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alırdı. Belə ki, 1991-ci ildə Azərbaycan Respublikası müstəqil bir dövlət olduqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Və bundan sonra bir çox tarixçilərimiz tarixi keçmişimizə dair araşdırmalar apararaq elmi əsərlər yazmışdılar. Tariximizi yaxşı bilmək hər birimizin borcudur. Bunun üçün kiçik yaşlardan mütaliə etmək lazımdır. Mütaliənin ən yaxşı vasitəçisi kitablardır. Oxucuların tariximizi daha yaxşı bilməsi üçün təbliğat vasitəçisi olaraq təhsil müəssisələri ilə yanaşı, kitabxanaların da müstəsna rolu vardır. Müasir dövrə aid kitabların mütaliəsi də yeniyetmə oxucunun bir vətəndaş kimi yetişməsində, günün fövqündə durmasında, sabahkı siyasətin proqnozundan baş çıxarmasında mühüm rol oynayır. Bütün bunlar bu günün yeniyetməsi üçün vacibdir. Çünki bu günün yeniyetmə oxucusu, şagirdi sabah müstəqil respublikamızın çiçəklənib dünyanın ən inkişaf etmiş ölkərdən birinə çevrilməsi işində aparıcı qüvvə olacaqdır. Onu bu işə hazırlamaq valideyn, müəllimlərlə bərabər həm də kitabxanaçının vəzifəsidir. Bunun üçün kitabxanaçı müasir problemlərə dair materiallarla tanış olmalı, öyrənməli və oxucuya çatdırmalıdır. Bu işdə kitabxana işinin bütün forma və metodlarından istifadə etməlidir. Müxtəlif plakatlar, sərgilər, kartoteka qutuları belə materialların təbliğində kitabxanaçının köməkçisi ola bilər.

Məsələn, F.Köçərli adına Respublika Uşaq Kitabxanasında "Qar üstünə qar yağırdı" (Xocalı), "Qərənfil – şəhid qanı" (20 yanvar) qovluqlar, siyahılar, şirma kataloqlar mövcuddur. İKT-yə əsaslanaraq isə bu mövzuda bazalar yaratmaq və bu bazaların yaradılması işinə yeniyetmə oxucunu cəlb etmək özü

də yerinə düşər. RUK-un saytında da mövzular üzrə elektron kitabxanaya daxil olub rus dilində belə ədəbiyyatı tapmaq mümkündür. Bu işi həyata keçirmək üçün kitabxanalarda kitabxanaçılar mütəmadi olaraq kütləvi tədbirlərin təşkil edilməsinə xüsusi diqqət yetirməlidirlər.

Kütləvi tədbirlərə əyani təbliğat formalarından biri olan ***sərginin təşkil*** edilməsini göstərə bilərik. Sərgidə Azərbaycanın ayrı-ayrı tarixi mərhələlərinə dair yazılmış elmi və bədii ədəbiyyatı əks etdirmək olar. Sərgini "Azərbaycan tarixi üzrə qaynaqlar", "Eldən-elə", "Azərbaycan – Vətənim mənim", "Azərbaycan qəhrəmanlar yurdudur", "Biz Milli Ordumuzla fəxr edirik", "Düşünən və döyüşən tarix", "Doğma Azərbaycanımızın tarixini öyrənək" və s. başlıqlar altında təşkil etmək olar. Kitabxanaçı "Doğma Azərbaycanımızın tarixini öyrənək" adlı sərgini təşkil etdikdə Qarabağ mövzusu haqqında yazılmış kitabları sərginin əvvəlində ilk sırada göstərməlidir.

"Doğma Azərbaycanımızın tarixini öyrənək" adlı sərgiyə daxil olan ədəbiyyat siyahısı aşağıdakıdır:

1. Başlıq: "Azərbaycan tarixi üzrə qaynaqlar";
2. I Yarımbaşlıq: "Qarabağ sindromu";
3. Əliyev V. Zəngəzurda qalan izimiz. B.: Nurlan, 2004.- 295s.
4. Yusif H. Qarabağ sindromu. B.: Şəms, 2007.-255s.
5. Məmmədova H. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət. Erməni terrorizminin güclənməsi. (1918-1920).B.: Nağıl Evi, 2006.-150s.
6. Əliyarlı S. Azərbaycan tarixi üzrə qaynaqlar. B.: Çıraq, 2007.-400s.
7. Məmmədov S. Azərbaycan tarixi. B.: Elm, 1993.- 284s.
8. Əroğul Ə. Erməni daşnak faşizmi və Azərbaycan. B.: Təhsil, 2007.-412s.
9. II Yarımbaşlıq: "Azərbaycan tarixi bədii ədəbiyyatda";
10. Kərimzadə F. Xudafərin körpüsü. B.: Çaşıoğlu, 2007.-328s.
11. Cəfərzadə Ə. Eldən-elə. B.: Şərq-Qərb, 2006.- 384s.

12. Rüstəmxanlı S. Ölüm zirvəsi. B.: Qanun, 2007.- 556s.
13. Gevr J. Xacə Şah. Tarixi roman. B.: Gənclik,1993.- 224s.
14. Çəmənli M. Xallı Gürzə. Tarixi roman. B.: Vektor, 2006.- 360s.

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının biblioqrafiya şöbəsi “Tarix nə üz görür, nə rüşvət alır, Tarixdə tarixi həqiqət qalır” adlı **slayd, ədəbiyyat siyahısı** hazırlayıb clb.az saytında yerləşdirmişdir. F.Köçərli adına RUK-un biblioqrafiya şöbəsinin müdiri Sevil Əhmədovanın bu mövzu ilə bağlı məsləhətlərini gözdən keçirək:

Tarixə dair ədəbiyyatın yeniyetmə yaşlı uşaqların tərbiyəsində, onların bir vətəndaş kimi böyüməsində böyük əhəmiyyəti var. Bu cür ədəbiyyat uşaqlara vətənpərvərlik hissi aşılayır, onlara öz əcdadlarının, ulu babalarının keçdiyi şanlı yolu öyrənməkdə yaxından kömək edir. Bu sahəyə dair ədəbiyyatı uşaqlara təbliğ etmək, onlara bu ədəbiyyatdan istifadəni öyrətmək üçün kitabxanaçı özü lazımi səviyyədə hazırlıqlı olmalı, kitabxananın fondunda olan tarixə dair ədəbiyyatı tanımalı, onu üzə çıxarmalı, onların arasındakı xronoloji əlaqəni aşkarlamalı, başqa kitabxanaların fondunda olan ədəbiyyat haqqında məlumatı olmalıdır. Bunun üçün yaxşı olardı ki, kitabxanaçı kartoteka qutusu hazırlasın. Məsələn, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının MBŞ-si “Azərbaycan tarixinə dair nə oxumalı?” adlı kartoteka qutusu hazırlamışdır. Burada ədəbiyyat aşağıdakı şəkildə qruplaşdırılmışdır:

1. Azərbaycan Tarixi Elmi Ədəbiyyatda:
   a. XX əsrə qədərki dövrə aid ədəbiyyat;
   b. ADR;
   c. Azərbaycanın ərazi bütövlüyü;
2. Azərbaycan Tarixi Bədii Ədəbiyyatda.

Kartotekanın köməyilə uşaqlar oxuduqları bədii əsərlə elmi ədəbiyyat arasındakı əlaqəni tez aşkara çıxara bilər və bədii

əsərin mütaliəsindən əldə etdikləri bilikləri elmi kitabların köməyi ilə möhkəmləndirə bilərlər. Kitabxanaçı da bu əlaqənin aşkara çıxarılmasında oxucuya yaxından kömək etməlidir. Məsələn, Ə.Məmmədxanlının “Babək”, C.Bərgüşadın “Sıyrılmış qılınc” romanlarını oxumuş oxucuya kitabxanaçı tarixçi alim Z.Bünyadovun “Azərbaycan VII-IX əsrlərdə”, S.Nəfisinin “Azərbaycan qəhrəmanı Babək Xürrəmidin” əsərlərini də oxumağı məsləhət görsə, yerinə düşər. Və yaxud Azərbaycan tarixində xüsusi rolu olmuş Şah İsmayıl Xətai haqqında yazılmış: F. Kərimzadənin “Xudafərin körpüsü”, “Çaldıran döyüşü”, Ə.Nicatın “Qızılbaşlar”, Ə.Cəfərzadənin “Bakı-1501” kitablarını oxumuş oxucuya isə O.Əfəndiyev “Səfəvilər dövləti” və “Səfəvilər dövlətinin sonu” və s. kitablarını məsləhət görə bilər.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasının biblioqrafiya şöbəsi bu siyahının elektron təqdimatını da hazırlamışdır. Bu kitabları oxumağı tövsiyə edən kitabxanaçı həm də bu kitabların hansı şöbədə yerləşdiyi haqqında da məlumat verir ki, bununla da yeniyetmə oxucunun kiçik yaşlarında öyrəndiyi sistemli və əlifba kataloqundan istifadə etmək sahəsində əldə etdiyi biliklərin möhkəmləndirilməsi işinə də bilavasitə xidmət etmiş oluruq.


SEVİNC NURUQIZI
QİSAS


MUSTAFA ÇƏMƏNLİ
Ölüm Mələyi


Elçin
Hüseynbəyli
ROMAN-XRONİKA
Şah Abbas
PROZA


FƏRMAN KƏRİMZADƏ
SEÇİLMİŞ
ƏSƏRLƏRİ
IV cild


Mustafa Çəmənli
RUHLARIN
ÜSYANI


Vahid Məmmədli
ATROPATENA
DASTANI


MUSTAFA ÇƏMƏNLİ
XALLI GÜRZƏ


SEÇİLMİŞ
ƏSƏRLƏRİ
II cild


Yunus OĞUZ
Attila


SEÇİLMİŞ
ƏSƏRLƏRİ
V cild


Yunus Oğuz
Əmir
Teymur
DÜNYANIN HAKİMİ
Tarixi roman
II kitab


Yunus Oğuz
NADİR ŞAH
Tarixi roman


Yunus Oğuz
TƏHMASİB
ŞAH
tarixi roman


Sabir RÜSTƏMXANLI
GÖY TANRI


ƏHMƏD RƏCƏBLİ
BABƏK


Yunus Oğuz
Əmir
Teymur
ZİRVƏYƏ DOĞRU
Tarixi roman


SABİR
RÜSTƏMXANLI
ÖLÜM
ZİRVƏSİ
ROMAN


SABİR RÜSTƏMXANLI
DİFAİ
FƏDAİLƏRİ
BƏLGƏSƏL ROMAN

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Azərbaycan tarixinin uşaq kitabxanalarında təbliği ilə bağlı "Azərbaycan tarixi bədii ədəbiyyatda" başlığı altında sərgi təşkil etmək və sərgidə nümayiş olunan kitablar haqqında məlumat verməklə, **oxucularla söhbət** keçirmək olar. Tariximizin məktəblilər arasında təbliği zamanı söhbət ən təsirli vasitələrdəndir. Kitabxanaçı gündəlik iş prosesində bu tədbirdən geniş istifadə etməlidir. Söhbət elə qurulmalıdır ki, oxuculara təsir etsin, onları həyəcanlandırsın. Uşaqlar müharibənin dəhşətlərini gözləri qarşısında canlandıra bilsinlər.

**Nuruqızı S. Qisas: bədii əsər.-B.: Vector Nəşrlər Evi, 2005.-132s.** Sevinc Nuruqızının "Qisas" povesti Dağlıq Qarabağ müharibəsinin dəhşətlərini gözləriylə görmüş, ermənilər tərəfindən min cür işgəncələrə dözən ana və balanın taleyindən söhbət açır. "Qisas" povestindən söhbət apararkən kitabxanaçı obrazı elə təsvir etməlidir ki, o oxucunun gözləri qarşısında cərəyan etsin, qəhrəmanın daxili aləmi ilə yaşasın. Yuxarıda qeyd etdiyimiz kitabın müzakirəsini keçirmək daha yaxşı nəticə verər. Kitab oxucular arasında müzakirə obyektinə çevriləcək, kitabın oxucular arasında təbliği genişlənəcəkdir.

**Çəmənli M. Xallı gürzə : tarixi roman. – B.: Vektor Nəşrlər Evi, 2006. – 360 s.** Pənah xan Azərbaycan tarixində parlaq iz qoymuş şəxsiyyətdir. O, XVIII əsrin əvvəllərində Nadir şahın sarayından qaçaraq bir müddət Qəbələ, Şəki, Qarabağ dağlarında daldalanmış, az sonra Qarabağ xanlığını yaratmış, öz hakimiyyəti dövründə Bayat, Şahbulaq (Şuşa) şəhər-qalaların əsasını qoymuşdur. Tarixi qaynaqları bədii təxəyyülünə söykək seçən müəllif görkəmli sərkərdə, müdrik dövlət xadimi Pənah xanın zəmanəyə diz çökməyən obrazını yaratmışdır. Xalqın dövranı qara gələndə Zaman onun böyük oğullarını Xallı gürzə timsalında udub məhv edir. Roman bu qayə ilə - zaman və şəxsiyyətin faciəsi fonunda oxucunun qan yaddaşını oyadır, onu daxili düşüncəyə və yaşanmaya sövq edir.

**Çəmənli M. Ölüm mələyi : tarixi roman. – B.: MHC-poliqraf, 2012. – 296 s.** Mustafa Çəmənlinin bu romanında Azərbaycan tarixinin çox mürəkkəb və ziddiyyətli bir dövrü təsvir olunur. Romanda I Şah Təhməsibin ömrünün son günləri, onun Qəhqəhə qalasında dustaq etdiyi oğlu İsmayıl Mirzənin hakimiyyətə gəlməsi və fəaliyyəti öz əksini tapmışdır. "Ölüm mələyi" romanının süjet xətti tarixi romanlara xas ənənəvi döyüş səhnələri ilə deyil, saraydaxili ziddiyyətlər, insan münasibətləri, hakimiyyəti əldə etmək və onu qorumaq uğrunda mübarizə yolları ilə səciyyəvidir. Səfəvilər xanədanının böyük bir dövrünü əhatə edən bu romanda I Şah Təhmasib, II Şah İsmayıl, Pərixan bəyim, Gövhər bəyim, İbrahim Mirzə, Hüseynqulu Xülafə və başqa tarixi şəxsiyyətlərin dolğun bədii obrazları yaradılmışdır.

**Hüseynbəyli E. Şah Abbas : roman-xronika. – B.: Adiloğlu, 2008. – 368 s.** "Şah Abbas" romanı Qızılbaş-Səfəvi dövlətinin ən parlaq hökmdarının həyatına və döyüşlərinə həsr olunub. "İran aslanı" ləqəbi verilmiş Şah Abbas təxminən 16 yaşında hakimiyyətə gəlib və parçalanmış Səfəvi məmləkətini yenidən birləşdirə bilib. O, rəqibləri ilə döyüşlərinin hamısında qalib gəlib, o cümlədən osmanlıların əfsanəvi sərkərdəsi Cığaloğlu Sinan paşanı iki dəfə məğlub edib. Roman-xronika janrında yazılmış əsərdə Səfəvi-osmanlı, Səfəvi-Özbəkiyyə, Səfəvi-Krım tatarları və Şərqi Gürcüstanda aparılan döyüşlərdən, eləcə də qızılbaş məmləkətinin Batı (Avropa) ilə diplomatik əlaqələrindən hərtərəfli bəhs edilir.

**Kərimzadə F. Xudafərin körpüsü. – B.: Şaşıoğlu, 2007. – 328 s.** Azərbaycan tarixinə dair bir neçə əsərin müəllifi olan F. Kərimzadə "Xudafərin körpüsü" əsərində Azərbaycan tarixində mühüm rol oynamış Səfəvilər dövlətinin yaradıcısı Şah İsmayıl Xətainin uşaqlıq illərini və hakimiyyətə gəlmək üçün keçdiyi yolları təsvir edir. Əsər Şah İsmayılın taxta çıxması ilə bitir.

**Kərimzadə F. Çaldıran döyüşü : tarixi roman // Seçilmiş əsərləri 5 cilddə. II c. – B.: Ağrıdağ, 2003. – 328 s.**"Çaldıran döyüşü" romanı "Xudafərin körpüsü" romanının ardıdır. Roman Şah İsmayılın Çaldırandakı məğlubiyyətindən bəhs etsə də nikbin sonluqla bitir. Romanın sonunda Şah İsmayılın "Biz hələ ölməmişik" sözləri oxucuda nikbin ruh yaradır.

**Kərimzadə F. Qoca qartalın ölümü : roman // Seçilmiş əsərləri. 5 cilddə. 5 C. – B.: Ağrıdağ, 2007. – 248 s.** Romanda Şuşanın əsasını qoymuş Pənah xanın Nadir şahın zülmündən qurtararaq Azərbaycana gəlməsindən, onun ömür yolundan və vəfatından bəhs edilir. Əsərdə həm də Nadir şahın fəaliyyəti haqqında məlumat verilir.

**Kərimzadə F. Təbriz namusu : tarixi roman // Seçilmiş əsərləri. 5 cilddə. IIc. – B.: Ağrıdağ, 2005. –320 s.** Romanda 1256-cı ildə Azərbaycanı işğal edərək Hülakilər, yaxud İlxanilər hakimiyyəti qurmuş monqol sülaləsindən və onun sonuncu hökmdarı – 1335-ci ildə zəhərlənib ölmüş Əbu Səidin hökmranlığından, xalqımızın azadlıq ruhundan bəhs edilir. 79 il davam etmiş bu istilaya son qoyulur. O günlərdən isə "Apardı sellər Saranı" mahnısı əbədi yadigar qalır.

**Məmmədli V. Atropatena dastanı. – B.: Zərdabi LTD MMC, 2010. – 272 s.** Yazıçının üç kitabdan ibarət "Atropatena dastanı" trilogiyası dünya oxucuları arasında maraqla oxunan fentezi janrının tələblərinə uyğun, ana dilimizdə yazılan ilk əsərdir. Maraqlı magiyalar və sehirlərlə, yeni nağıl və fantastik qəhrəmanlarla, macəra, detektiv, döyüş və məhəbbət səhnələri ilə zəngin olan bu əsər hər bir azəbaycanlı üçün maraqlı olacaq bir dövrü, tariximizin Albaniya və Atropaena dövrünü əhatə edir.

**Oğuz Y. Attila : pyes. – B.: Apostrof, 2008. – 176 s.** Əsərdə tarixdə "Tanrı qılıncı" ləqəbi ilə məşhurlaşmış, bütün Avropanı lərzəyə salmış böyük hun sərkərdəsi Atillanın həyat və döyüş yolundan bəhs edilir.

**Oğuz Y. Əmir Teymur : tarixi roman. I kitab. Zirvəyə doğru. – B.: Apostrof, 2011. – 368 s.** Kitab orta əsrlər Şərq tarixində, o cümlədən, Azərbaycan tarixində mühüm rol oynamış, ölkələrin tarixini dəyişmiş, onların ictimai-iqtisadi, siyasi və mədəni həyatında xüsusi iz qoymuş Teymur Ləng ləqəbli fateh Əmir Teymurun keçdiyi həyat və döyüş yolundan bəhs edir. Əminik ki, əsər Əmir Teymurla maraqlanan hər bir oxucu üçün maraqlı olacaqdır.

**Oğuz Y. Əmir Teymur : tarixi roman : Dünyanın hakimi. : II kitab. – B.: Apostrof, 2012. – 360 s.** "Əmir Teymur "Bir tanrı, bir xaqan" deyimini həyatda bərpa etmiş sonuncu türk hökmdarı idi. Bu böyük fatehdən sonra heç zaman türk torpaqları və türk dövlətləri vahid hala gələ bilmədi. Heç ümumi düşmən qarşısında birləşmədilər".

Bu sətirlər Əmir Teymura həsr olunmuş bu əsərin son cümləlœridir. Və bu sətirlər oxucuda istər-istəməz təəssüf hissləri oyadır.

**Oğuz Y. Nadir şah : tarixi roman. – B.: Apostrof, 2008. – 576 s.** "Nadir şah" romanı xalqımızın tarixinin ən məsuliyyətli və ən orta əsrlərdən qopub yeni dövrə keçdiyi dövrün tarixi hadisələri, buradan çıxan nəticələri kifayət qədər mükəmməl bir şəkildə təqdim edən bir əsərdir.

**Oğuz Y. Təhmasib şah : tarixi roman. – B.: Apostrof, 2009. – 504 s.** Yunus Oğuzun "Təhmasib şah" əsəri indiyə qədər bizim tarixşünaslığımızda o qədər də dərindən öyrənilməmiş bir dövrə həsr edilib. Əsərin üstün cəhəti də elə odur ki, belə mürəkkəb və tarixi təfəkkürdən xeyli dərəcədə kənarda qalmış, amma Səfəvilər tarixinin həm də çox maraqlı dövründəki proseslərdən, Azərbaycan Səfəvilər dövlətinin İran dövlətinə çevrilməsi səbələrindən bəhs edir.

**Rəcəbli Ə. Babək : roman. – B.: Nurlan, 2004. – 145 s.** Əhməd Rəcəblinin Maqadanda yazılmış yarımçıq "Babək" romanı Azərbaycanın bugünkü vəziyyətində aktuallıq kəsb edir. Əsər müasir gəncliyin vətənpərvərlik ruhunda tərbiyə olunması işində mühüm rol oynaya bilər.

**Rüstəmxanlı S. Difai fədailəri : bəlgəsəl roman. – B.: Qanun, 2010. – 448 s.** Azərbaycan ictimai-fikir tarixinin ən nəhəng simalarından olan Əhməd Ağaoğlu 1905-1907-ci illər erməni-müsəlman davasında erməni terrorunun qarşısını almaq, ermənipərəst çar idarələrinin xəyanətkar Antiazərbaycan siyasətinə cavab vermək üçün "Difai" adlı bir partiya və ya müdafiə təşkilatı yaratmışdı. Bakıdan-Batuma, Qarabağdan-Dağıstana geniş şöhrət qazanan təşkilatın on minlərlə üzvü var idi. "Difai"nin meydana çıxması ilə Qafqazda qüvvələr nisbəti Azərbaycanın xeyrinə dəyişdi. Romanda o dövrün adamlarını müdafiə hərəkatına qoşan səbəblər, Azərbaycanı xilas etmək yolunda ziyalılarımızın apardığı çətin və şərəfli mübarizə əksini tapmışdır.

**Rüstəmxanlı S. Göy tanrı : Oğuz xan boyunu söylər : roman. – B.: Qanun, 2005. – 416 s.** Bu romanda Azərbaycan və Şərq tarixində böyük rol oynamış Oğuz xanın və qədim türklərin mənşəyi və keçdiyi yollardan, eləcə də Təkallahlılığın mühüm mərhələsi olan Göy Tanrı inancından danışılır. Həm mövzusuna, həm də yazı tərzinə görə əsər çağdaş ədəbiyyatımızda mühüm bir hadisə sayılır.

**Rüstəmxanlı S. Ölüm zirvəsi : roman. – B.: Qanun, 2007. – 556 s.** Azərbaycan və türk dünyasının görkəmli fikir adamı, nasiri, publisisti, ictimai xadimi, millət vəkili, Xalq şairi Sabir Rüstəmxanlının "Ömür zirvəsi" romanı Azərbaycanın işğalına qarşı qəhrəmanlıqla mübarizə aparmış Gəncə hökmdarı, görkəmli dövlət xadimi və sərkərdə Cavad xan Ziyadxanoğlunun ömür yolundan bəhs edir.

Kiçik yaşlı uşaqlar üçün təşkil edilən tədbirlərin ən maraqlısı **səhərcikdir.** Səhərciyin uşaqlar üçün əhəmiyyəti böyükdür. "Azərbaycan yurdum mənim" adlı **səhərcikdə** "Vətən" (Abbas Səhhət), "Öz vətənimdir" (Mirvarid Dilbazi), "Azərbaycan" (Səməd Vurğun), "Vətəni də sevirəm" (R.Yusifoğlu), "Ey anam, Azərbaycan" (H.Ziya) və "Qaranquş" (X.R.Ulutürk) şeirlərindən istifadə oluna bilər. Səhərciyə yekun vuran kitabxanaçı şeirləri düzgün söyləyən uşaqlara öz təşəkkürünü bildirməklə yanaşı, onlara həvəsləndirici mükafatlar da təqdim edə bilər. **Ucadan oxu** da kiçik yaşlı uşaqların sevimli tədbirlərindəndir. Mirvarid Dilbazinin "Azərbaycanım" şeirinin ucadan oxucunu keçirmək onlar üçün maraqlı olar.

Torpağı – türbət,
Suları – şərbət,
Günəşi – məlhəm,
Ayrılığı – qəm
Azərbaycanım!
Aranı, dağı,
Tərlan oylağı,
Könlüm çırağı,
Qızılgül bağı
Azərbaycanım!
Ana nəfəsim,
Qaranquş səslim,
Ellim, obalım,
Dağlar havalım
Azərbaycanım.
Qızları dilbər,
Oğulları ər,
Odum, ocağım,
Ana qucağım,
Qalsam həyatım,
Ölsəm torpağım
Azərbaycanım!

Məktəbli oxucular yetkinlik astanasında olarkən hər bir addımını fikirləşir, onu əhatə edən mühitin, həyat hadisələrinin təsirinə qapılırlar. Onlar daha çox bədii ədəbiyyat oxuyur, öz ideallarını ədəbiyyatda axtarırlar. Onların marağını nəzərə alıb kitabxanaçılar onlara Babək, Cavanşir, Koroğlu, Nəbi, Həzi Aslanov, Mehdi Hüseynzadə, Hüseynbala Əliyev, Çingiz Mustafayev, Salatın Əsgərova, Əlif Hacıyev və digər qəhrəmanların həyatından, keçdikləri döyüş və mübarizə yollarından, qəhrəmanlar haqqında çoxlu kitabların yaranmasından bəhs etməli, Azərbaycan tarixinə aid kitabların oxunmasını tövsiyə etməlidir ki, onlar vətənə sədaqət ruhunda böyüsünlər, vətən, xalq uğrunda çalışmağı özlərinə ən ümdə vəzifə hesab etsinlər. Oxucular belə kitabları oxuduqda igidlik, qəhrəmanlıq haqqında geniş məlumatlanacaq, vətənə daha da sadiq olacaqlar. Eyni zamanda onlarda nəcib əxlaqi keyfiyyətlər yaranacaqdır. Vətən yolunda qəhrəmanlıq göstərmək ideyası onları həmişə düşündürəcəkdir.

Kitabxanada Azərbaycan tarixinə aid kitabları oxuculara tövsiyə etmək üçün Azərbaycanımızın tarixindən bəhs edən kitablar həftəsi "Doğma Azərbaycanımızın tarixini öyrənək" başlığı altında **sərgi və müsabiqə** keçirmək olar. Müsabiqə ən azı bir həftə davam etməli və həftə ərzində sərgidə nümayiş olunan kitablar oxuculara mütaliə üçün verilməlidir. Həftənin sonunda ən çox mütaliə edən oxucu kitabxana müdiriyyəti tərəfindən **"Tariximizin bilicisi"** diplomu ilə mükafatlandırıla bilər.

Azərbaycan tarixinin kitabxanalarda təbliği prosesində **viktorinaların** təşkili orta və böyük yaş qrup oxucular üçün daha yaxşı olar. Viktorinanın suallarını təqdim edirik:

1. Azərbaycan Respublikasının ərazisi neçə $km^2$ -dir?
   86, 600 $km^2$
2. Azərbaycan Respublikasının Dövlət Bayrağının üzərindəki rənglər nəyin simvoludur?

Mavi – türkçülüyün, qırmızı – müasirlik və demokratiyanın, yaşıl – islamlığın.

3. Azərbaycan Respublikasının Dövlət Gerbinin üzərindəki simvollar nəyi bildirir?
   Qalxan və ulduz sağanaqları vətənimizin cənnət məskəni olmasını, alov – odlar yurdunu, palıd yarpaqları – uzun ömürlülüyün və möhkəmliyin, sünbül – bərəkət və bolluğun rəmzidir. Simvollar "müharibə istəmirik, lakin hər cür hücumdan müdafiə olunmağa hazırıq" fikrini ifadə edir.
4. Azərbaycanı 2 hissəyə bölən müqavilə hansıdır? Türkmənçay müqaviləsi.
5. Azərbaycan xalqının ana kitabı – "Kitabi-Dədə Qorqud" dastanı nə vaxt yaranıb?
   VII-IX əsrlərdə.
6. Azərbaycan Milli Qəhrəmanlarından kimləri tanıyırsınız?
   Çingiz Mustafayev, Allahverdi Bağırov, Əlif Hacıyev, Vüqar Hüseynov, Məhərrəm Seyidov, Əsəd Əhmədov, Şirin Mirzəyev və başqaları.
7. Bu qəhrəmanlar haqqında yazılmış hansı kitablar var? İ.İbadoğlu "Sərkərdə", A.Kərimli. "Zəngilan şəhidləri", S.Müslümqızı "Qar üstünə qan yağırdı", B.Səmədov., S.Aslanov "Təki Vətən yaşasın", M.Süleymanov "Milli Qəhrəmanlar" və s.
8. Azərbaycan torpağının işğal olunmuş rayonları hansılardır?
   Xankəndi, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdərə, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan.
9. Qarabağ müharibəsi nə vaxt başlamışdır?
   1988-ci ilin fevralında.
10. Azərbaycanlılara qarşı ermənilər tərəfindən soyqırım faciəsi nə vaxt törədilmişdir?
    1918-ci il 31 mart.

11. Böyük Vətən müharibəsi illərində neçə nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür?
    23 nəfər.
12. Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseyzadədən bəhs edən kinonun adı nədir?
    "Uzaq sahillərdə".
13. "Sizi dünyalar qədər sevirəm" bədii filmi kimə həsr olunub?
    Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanova.
14. Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə neçənci ildə qayıtmışdır?
    1993-cü il 3 oktyabr.
15. "Əsgər marşı"nın musiqisi kimindir?
    Cavanşir Quliyevin.
16. "Vətən mənə oğul desə nə dərdim,
    Mamır olub qayasında bitərdim" misralarının müəllifi kimdir?
    Xalq şairi Məmməd Arazın.

Sualların sayını artırmaq da olar. Sualları düzgün cavablandıran oxucular müxtəlif hədiyyələrlə mükafatlandırılır.

Uşaqlar gördüyü, eşitdiyi, müşahidə etdiyi hadisələri müzakirə etməyə, ona öz münasibətini bildirməyə daha çox cəhd edirlər. Kimin doğru, kimin səhv, kimin pis, kimin isə yaxşı hərəkət etdiyini öyrənmək istəyirlər. Uşaqlar ictimai-siyasi hadisələrə də etinasız yanaşa bilmirlər. Xoşbəxtlik, qəhrəmanlıq, ədalət və s. haqqında mübahisə etməyə, fikirlərini bildirməyə, öz sözlərini deməyə çalışırlar. Bu məsələlərin düzgün təhlil edilməsi və başa düşülməsində təşkil olunan disputların böyük əhəmiyyəti vardır. "Kimə qəhrəman deyirik" adlı disputun keçirilməsi daha məqsədəuyğun olar. **Disput** kitabxanaçının qısa müsahibəsi ilə başlanmalıdır. O, müzakirə ediləcək mövzunu oxuculara bildirməlidir. Daha sonra oxucuların çıxışları başlanmalıdır. Belə tədbirlərdə oxucular öz bilik dairələrini və təfəkkürlərini daha da zənginləşdirə bilirlər.

Tədbirin sonunda maraqlı çıxışla öz obyektiv fikrini bildirən oxucu kitabxanaçı tərəfindən mükafatlandırıla bilər.

Uşaq kitabxanalarında mənəvi abidəmiz olan, 1300 ildən də çox qədim bir tarixə malik olan "Kitabi-Dədə Qorqud" dastanının təbliği məktəblilərdə Azərbaycan tarixini öyrənməyə, kökünə sadiqlik, milli adət-ənənələrimizə hörmət kimi hisslər tərbiyələndirməkdə başlıca rol oynayır. Salur Qazan, Beyrək, Qaraca Çoban kimi qəhrəmanlarımızın simasında qeyrət, cəsarət simvollarına çevrilmiş oğullardan nümunə götürən yeniyetmələrimiz milli köklərimizə bağlılıq ruhunda tərbiyə olunurlar. "Kitabi-Dədə Qorqud" dastanındakı "Basatın Təpəgözü öldürdüyü boy" hər birimizə tanışdır. Kitabxanaçı bu boyu kiçik yaşlı oxucular arasında təbliğ edərkən Basatın vətənpərvərliyini, doğma yurda, elinə, obasına sönməz sevgisini, qorxunc yağı qarşısında əyilməzliyini və cəsarətini ön plana çəkməlidir. Kifayət qədər şan-şöhrət sahibi olan Basat Təpəgözün üstünə getməyə də bilərdi. Ancaq ana yurda məhəbbət, amansız düşmənin qəddarlığı, Oğuz elinin üstünü alan təhlükə onu bu nəhənglə ölüm-dirim mübarizəsinə sövq edir. Ata-anası ağlayıb sızlasa da Basat öz yolundan dönmür. Hətta Oğuz elinin bəylərbəyi Qazan xan da Təpəgözlə savaşın çox qorxulu olduğunu Basata anlatmağa, onu bu yoldan döndərməyə çalışır.

Böyük nəhəng oldu Təpəgöz,
Göydə çevirdim yıxa,
bilmədim Basat!
Böyük qaplan oldu Təpəgöz,
Uca dağlarda fırlandıq, yıxa,
bilmədim, Basat!
Ağsaqqallı atanı ağlatma!
Ağbirçəkli ananı zarıldatma!

Bu sözlərdən real təhlükənin nə qədər qorxulu olduğu anlaşılır. Çünki bütün oğuz elinin dövləti, "ümmət soyunun aslanı, qalmış yigit arxası" kimi tanınan Qazan xan belə

Təpəgözün qarşısında acizliyini bildirir. Kitabxanaçı oxucuların diqqətini misralara cəlb edərək, Basatın nə qədər cəsarətli və təhlükəli bir addım atdığını, fəqət bu addımın nəcib bir məqsədlə - xalq, doğma yurd və onun övladları naminə atıldığını qeyd etməlidir.

Azərbaycanımızı, onun tarixini sevmək, oxuculara təbliğ etmək üçün uşaq kitabxanalarında Milli Ordunun əsgər və zabitləri ilə görüşlər keçirmək yaxşı olar. Görüşdə əsgər və zabitlər uşaqlara göstərdikləri şücaətdən, azğın düşmənlə necə vuruşduqlarından bəhs etməli, oxucular tərəfindən tarixi mövzuda şeirlər söylənilməli, nəğmələr oxunmalıdır. Belə görüşlərin keçirilməsi onlarda Azərbaycan əsgəri olmaq və vətənin keşiyində dayanmaq hissini bir daha gücləndirir.

Azərbaycan tarixinin kitabxanalarda təbliği ilə bağlı böyük yaşlı oxucuların yaş xüsusiyyətini və zövqünü nəzərə alıb kitabxanada **guşə** təşkil etmək yerinə düşər. Çünki guşə sərgiyə nisbətən geniş olur. Guşədə kitabdan başqa qəzet və jurnal məqalələri, ədəbiyyat tövsiyə siyahıları, mövzuya uyğun şəkillər nümayiş olunur. Guşənin birinci hissəsini ulu öndər Heydər Əliyevə həsr etmək olar. Çünki məktəblilərin öz tarixini mənimsəməsində, vətənpərvərlik tərbiyəsində ən başlıca yeri görkəmli şəxsiyyət, müdrik və aqil bir insan, xalqı özünə böyük dayaq hesab edərək xalq üçün çox böyük işlər görən, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi sahəsində böyük xidmətləri olan ulu öndər Heydər Əliyevin həyatı, fəaliyyəti və ömür yolunun mənalı səhifələrinin vərəqlənməsi tutur. Bu aqil insanın simasında vətənə məhəbbətin, torpağa bağlılığın, vətənpərvərliyin gözəl nümunələrini görən oxucuların hər biri bu böyük şəxsiyyətdən əxlaqi keyfiyyətlər əxz edirlər. Oxucular özlərini doğma vətəni Azərbaycanın layiqli vətəndaşı sayır, özlərində onun müdafiəsinə hazır olduqlarına əminlik yaradırlar.

Bir vətənpərvər şəxsiyyət kimi kitabxanada ulu öndərə həsr edilən "Biz qalib gələcəyik!" başlığı ilə **poeziya gecəsi** keçirmək olar. Poeziya gecəsində ilk öncə aparıcı ulu öndərin həyat və

fəaliyyətindən, Azərbaycan Respublikasının azad, müstəqil bir dövlət kimi tanınmasında gördüyü işlərdən danışmalı, sonra ulu öndərə həsr olunmuş şeirlər dinlənilməlidir. Bundan əlavə **"Heydər Əliyev və müstəqil Azərbaycan"** mövzusunda **rəsm müsabiqəsi** keçirilə bilər. Müsabiqənin vaxtı bitdikdən sonra oxucuların rəsmlərinin sərgisi keçirilməli və münsiflər heyəti tərəfindən qaliblər mükafatlandırılmalıdır.

Azərbaycan tarixinin təbliği metodunun əsas mənbəyi bizim ədəbiyyatımızdır. İlk növbədə M.F.Axundovun maarifçilik ənənələri, Cəlil Məmmədquluzadə, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı, Səməd Vurğun və s. klassiklərimizin yaradıcılıq prinsipləri həmişə uca tutulmalıdır. Belə ki, bu klassiklərimizin əsərləri əsasında "Torpaq, uğrunda ölən varsa, Vətəndir", "Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı", "Vətəndaşlıq borcumuz" və s. mövzularda **oxucu konfransı, müzakirələr, ədəbi-bədii gecələr** hazırlamaq olar.

Eyni zamanda orta yaş qrup oxucular arasında **inşa və rəsm müsabiqələri** də keçirilə bilər. Müsabiqədə əsasən Azərbaycanın əsas tarixi səhnələrini əks etdirən rəsmlərin sərgisini nümayiş etdirmək lazımdır. Müsabiqəni "Odlar yurdu Azərbaycan" başlığı ilə təqdim etmək olar. Bu məqsədlə əvvəlcə kitabxananın girəcəyində keçiriləcək müsabiqənin elanı asılır. Orada tədbirin keçirilməsi ilə bağlı bütün şərtlər göstərilir. Hər iki müsabiqədə iştirak edən oxucular bir daha tarixə dair bilik bazalarını genişləndirmiş olurlar. Müsabiqədə fərqlənənlər mükafatlandırılmaqla yanaşı, tədbirlə bağlı məlumatlar radio, televiziya verilişlərində və mətbuatda öz əksini tapmalıdır.

Həmçinin böyük yaş qrup oxucuları ilə "Azərbaycan tarixi bədii ədəbiyyatda" adlı **biblioqrafik icmal** keçirmək olar. Bunun üçün Xalq şairi Səməd Vurğunun "Vaqif" dramının, Yusif Vəzir Çəmənzəminlinin "Qan içində" və ya "İki od arasında" əsərinin, Əzizə Cəfərzadənin "Bakı 1501", Fərman Kərimzadənin "Xudafərin körpüsü", Bəxtiyar Vahabzadənin "Dar ağacı" əsərlərinin icmalını keçirmək maraqlı olar.

Nümunə üçün bir neçə ədəbiyyatın qısa icmalını veririk:
1. **Həvva Məmmədovanın "Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət" -** Kitab 1918-1920-ci illəri əhatə edir. Kitabda zəngin arxiv materiallardan istifadə olunaraq 1918-1920-ci illərdə Yuxarı Qarabağda siyasi vəziyyəti Zəngəzurda erməni terroru haqqında ətraflı məlumat verilir. Həmçinin kitabda Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları təhlil edilir. Bu dövrdə Azərbaycan hökumətinin atdığı qətiyyətli addım, General-qubearnatorluğun yaradılması və fəaliyyəti geniş işıqlandırılır.

**2. Əliyarlı S. "Azərbaycan tarixi üzrə qaynaqlar" -** Kitabda verilən materiallar XIX əsrin 70-ci illlərinə qədərki dövrü əhatə edən çox gərəkli sənədlər və təsviri yönümlü mətnlərdən seçmələr daxildir.

**3. Sabir Rüstəmxanlı "Ölüm zirvəsi"** - Kitabda Azərbaycanın işğalına qarşı qəhrəmanlıqla mübarizə aparmış Gəncə hökmdarı, görkəmli dövlət xadimi və sərkərdə Cavad xan Ziyadxanoğlunun ömür yolundan bəhs edilir. Sisianovla başlanan rus işğalından qurtarmağa ilk uğurlu cəhd 114 ildən sonra baş tutdu. Cavad xanın Gəncəsində ayaq tutan müstəqillik cəmi iki il ömür sürdü. Bu işğaldan 187 il sonra isə bu sətirlərin müəllifi öz məsləkdaşlarıyla birlikdə Azərbaycanın müstəqillik aktına imza atıb, bu işğala həmişəlik son qoydular.

Yeniyetmə və gənclərimizi hərbi vətənpərvərlik ruhunda böyütmək, onlarda düşmənə nifrət hissi oyatmaq hər birimizin ən başlıca borcudur. Belə ki, uşaq kitabxanalarında bu günümüz üçün aktual mövzu olan Qarabağ problemi ilə bağlı, müstəqilliyə həsr edilmiş ədəbi-bədii gecə keçirmək məqsədəuyğun olardı. Ədəbi-bədii gecəni "Qarabağ dərd yerimiz", "Azərbaycan yurdum mənim", "Çiçəklən doğma Azərbaycan", "Azərbaycan qəhrəmanlar yurdudur" və s. başlıqlar altında təşkil etmək olar. Eyni zamanda kitabxanada

generalların, milli qəhrəmanların, şəhidlərin həyatından bəhs edən kiçik **bukletlər** hazırlamaq olar. Çünki məktəblilərin vətənpərvərlik tərbiyəsində mili qürur hissi mühüm rol oynayır.

Azərbaycanımızın tarixini məktəblilərə sevdirmək məqsədilə kitabxanada "Doğma Azərbaycanımızın tarixini öyrənək" adlı tədbir də hazırlamaq olar. Əvvəlcə tədbir iştirakçılarına "Azərbaycanın ta qədimdən bu günə kimi keçdiyi qədim tarixlə bağlı slayd təqdim olunur. Gecə Müslüm Maqomayevin bəstəsi olan "Azərbaycan" mahnısının sədaları altında açılır. Aparıcılar səhnəyə daxil olur. Səhnə yalçın qayalar, sıra dağlar mənzərələri əsasında tərtib olunmuşdur.

**I aparıcı:** Vətən! Bu söz insanlarda daha dərin və əziz hislər oyadır. Vətənə məhəbbət öz xalqına məhəbbətdir. Vətən uğrunda hər cür fədakarlığa hazır olmaq lazımdır. Bu dünyaya göz açanda ana görmüşük. Onun ılıq nəfəsinə, təbəssümlü və işıqlı baxışlarına, məhəbbətlə süzülən şirin kəlmələrinə, bütün varlığımızı bürüyən sevgisinə qızınmışıq, böyümüşük. İlk kəlməmiz də "Ana" olub. Və illər ötdükcə, yaşa dolduqca, ağlımız kəsdikcə bilmişik ki, bizim üçün də, ata-anamız üçün də müqəddəs bir varlıq var. Ona "Vətən" deyirlər. "Vətən"-"Ana" qoşa çəkilən addır.

**II aparıcı:** Bizim Vətənimiz Azərbaycandır. Onun başı ağ çalmalı uca dağlar, laləli çəmənlər, çiçəkli düzlər, meyvəli bağlar, pambıq, taxıl sərvətli torpaqlardır. Vətən uzaq və qəhrəman keçmişimiz, bu günümüz, gələcəyimizdir. XX əsr xalqımızın tarixində dərin izlər buraxmışdır. Keçmiş Sovetlər Birliyinin dağılması, torpaqlarımıza edilən təcavüz, erməni işğalçılarının törətdikləri vəhşiliklər, müstəqilliyimizin gündən-günə möhkəmlənməsi xalqımızın keşməkeşli taleyinin yaddançıxmaz səhifələridir. Tarixi yaradan da, yaşadan da xalqın özüdür. Hər hansı bir xalqın tarixi dünya xalqları arasında o vaxt özünə layiqli yer tutur ki, bu tarix vətən və millət məfhumları ilə sıx bağlı olsun, vətənpərvərlik onun hər səhifəsindən ana xətt kimi keçsin.

**I aparıcı:** Hələ qədim vaxtlardan Azərbaycanda elə nəsillər, elə qəbilələr olmuşdur ki, onlar öz döyüşkənliyi ilə təkcə Qafqazda yox, hətta bütün dünyada tanınmışlar. Naxçıvanda Kəngərlilər, Bakıda Bakıxanovlar, Qazaxda Şıxlinskilər və Vəkilovlar, Borçalıda Yadigarovlar, Şəkidə Çələbilər, Gəncədə Cavad xanlar, Qarabağda Cavanşirlər, Lənkəranda Talışinskilər kimi el qeyrəti çəkən, ana torpağın başı üstünü təhlükə alanda birləşib ayağa qalxan, onun hər qarışı uğrunda canlarından keçən oğullar yetişib. Tariximizi bilmək, Azərbaycanımızı sevmək oxucularda keçmiş tarixi irsə məhəbbət oyadır, insanları vətən yolunda misilsiz qəhrəmanlığa və fədakarlığa ruhlandırır, yüksək vətəndaşlıq, namus, qeyrət, çətin anda cəsarət, əyilməzlik, döyüşkənlik, məğrurluq hissi aşılayır. Milli şüurun oyandığı, ölkədə demokratiyanın hökm sürdüyü bir şəraitdə keçmiş irsi dərindən öyrənib, onun yaxşı ənənələrini gələcək nəsillərə çatdırmaq tariximizə sevginin təzahürüdür.
**II aparıcı:** Bu gün müqəddəs torpaqlarımız od-alov içindədir. Torpaqlarımızın 20 faizinin işğal edildiyi, bir milyondan artıq qaçqın və köçkünlərin olduğu bir dövrdə Azərbaycan gəncliyinin düşmənə qarşı mübarizə əzminin artırılması, onun hərbi vətənpərvərlik ruhunun gücləndirilməsi günümüzün ən aktual mövzusuna çevrilməkdədir. Tarix boyu xalqımız öz vətəninin mənafeyinə laqeyd olmamışdır. Vətənə məhəbbət, vətənpərvərlik hissi doğma yerlərə və adamlara bağlılıqdan, onları yadelli düşmənlərdən qorumaqdan başlayaraq, bütün qüvvə və qabiliyyətini vətənin, xalqın mənafeyi uğrunda mübarizəyə həsr etməyə qədər inkişaf edib yüksəlmişdir. Azərbaycanı, öz vətənini tükənməz məhəbbətlə sevən, onun hər qarışını göz bəbəyi kimi qorumaq naminə canından belə keçməyə hazır olan xalqımızın çox qeyrətli övladları var. Əgər xalqımızda yüksək vətənpərvərlik hissi olmasaydı, əliyalın yurddaşlarımız 1990-cı ilin 20 yanvar gecəsi sinələrini düşmən tankları önündə polad sipərə döndərməzdilər.

*Məhəmməd Şəhriyarın "Azərbaycan" şeirinə yazılmış mahnı səslənir.*

Könlüm quşu qanad çalmaz sənsiz bir an, Azərbaycan,
Xoş günlərin getmir müdam xəyalımdan, Azərbaycan!
Səndən uzaq düşsəm də mən, eşqin ilə yaşayıram,
Yaralanmış qəlbim kimi qəlbi viran Azərbaycan...
Bütün dünya bilir, sənin qüdrətinlə, dövlətinlə
Abad olub, azad olub mülki-İran, Azərbaycan!
Bisutini-inqilabda Şirin-vətən üçün Fərhad
Külüng vurmuş öz başına, zaman-zaman, Azərbaycan!
Vətən eşqi məktəbində can verməyi öyrənmişik,
Ustadımız deyib: heçdir vətənsiz can, Azərbaycan.
Qurtarmaqçün zalımların əlindən Rey şümşadını,
Öz şümşadın başdan-başa olub al-qan, Azərbaycan!
Yarəb, nədir bu qədər ürəkləri qan etməyin,
Qolubağlı qalacaqdır nə vaxtacan Azərbaycan?
İgidlərin vətən üçün şəhid olub, əvəzində
Dərd almısan, qəm almısan sən vətəndən Azərbaycan!
Övladların nə vaxtadək tərki-vətən olacaqdır?
Əl-ələ ver, üsyan elə, oyan, oyan Azərbaycan!
Bəsdir fəraq odlarından kül ələndi başımıza,
Dur ayağa! Ya azad ol, ya tamam yan, Azərbaycan!
Şəhriyarın ürəyi də səninkitək yaralıdır,
Azadlıqdır mənə məlhəm, sənə dərman, Azərbaycan!

**I aparıcı:** Biz, Azərbaycan xalqı sadəcə müraciət və bəyanat yazmaqla özümüzü demokratik ölkə və sülhün keşikçisi kimi qələmə vermirik. Biz, Azərbaycan xalqı, müdriklərin hamıya lazımlı bir atalar sözü ilə öz sözümüzü çatdırmaq istəyirik. Atalar yerində deyib: "Ot kökü üstündə bitər". Bildiyimiz kimi ermənilərin yaxın əraziləri olmayıb, onlar hansı ölkədə, yəni əcdadları, bir neçə nəfər yaşadıqları dövlətə və xalqa xəyanət etdiklərinə görə, həmin dövlət başçısı tərəfindən 150-200 il

bundan qabaq ölkədən xaric olunublar. Onlar Qafqaza pənah gətiriblər və bir qaçqın kimi onlara sığınacaq yeri Azərbaycan torpağı olub. Bizə məlumdur ki, 15 Respublika ilə Azərbaycan da SSR-nin tərkibinə daxil olmuşdur. Azərbaycan xalqı üçün fərq etməz, hansı vaxt və kim hakim olsa, bu xalq demokratik sülh və əmin-amanlğın həqiqi qoruyucusu olub.
**II aparıcı:** Bu gün Qarabağı geri qaytarmaq, Azərbaycan varlığını, onun ərazi bütövlüyünü, torpaqlarımızı bərpa etmək, Azərbaycan dövlətçiliyinə əbədiyyət qazandırmaq hər birimizin vətəndaşlıq borcumuzdur.
*Oxucu Həsən Azəriyə aid olan "Qarabağım" adlı şeiri söyləyir.*

**Oxucu:** Zaman-zaman toy-büsatda
Xanın səsi havalanıb.
Vaqif şeiri oxunmuşdur
Qarabağda.
Bir azəri gözəlinin
əllərilə,
Min Qarabağ xalısına
Babək ilə Nəsiminin
Mənim məğrur nəslimin
Əqidəsi toxunmuşdur
Qarabağda.
Əgər layiq yazammasam
Bu şeirimi Qarabağa,
Qüssə, kədər boğar məni.
Şairlərin sırasından
Vidadi qovar məni...
Qarabağın ya Vaqifi,
Ya Eldarı olmalıyam.
Ya da Şuşa şəhərinin
Baş memarı olmalıyam.
Könlüm görür Qarabağı
Məşhur dünya kurortları
sırasında.

Uzaq elli səyyahları
Qarabağa daşımaq üçün
Təyyarələr azlıq etsin.
Cıdır düzü, gəlib səndə
Eldarlara səngər olan,
gen sinəndə,
Qonaq yüklü təyyarələr
yerə ensin.
Nə zamandır fikrimdə
Bir söz gəzir:
Hər il burda "Vaqif günü",
Bir "Qarabağ şikəstəsi",
Və "Muğamat festivalı"
olmalıdır.
Habil burda "Habil segah"
çalmalıdır.
O, "Qarabağ mükafatı"
almalıdır.
Mənim fikir xəritəmin
Şöhrətisən, Qarabağım.
Bəlkə elə buna görə,
Mənim oğul ilhamımın
Tükənməyən söhbətisən,
Qarabağım!

Musiqisi Rəşid Şəfəqə, sözləri Ələmdar Quluzadəyə məxsus olan "Qarabağ" adlı mahnı ifa olunur.

Çayım səndə, dağım səndə,
Yağış olum, yağım səndə.
Göy üzündə şimşəyimsən.
Yer üzündə ürəyimsən,
Gərəyimsən, kürəyimsən,
Ay Qarabağ, bağım səndə.

Nəqarət:

Mən yanan odlara,
Yanma, Qarabağ!
Sınanır Qarabağ,
Sınma Qarabağ!

Dağlarında qar görmüşəm,
Aranında bar görmüşəm,
Murovunun buzu bəri,
Söhbətinin duzu bəri,
Göz açanda üzü bəri,
Sinən üstə tar görmüşəm.

Nəqarət:

Qartalların qoşa gəlsin,
Xan güllərin qoşa gəlsin.
Susayan var soylarına,
Boy söyləyək boylarına,
Azərbaycan toylarına,
Ağdam gəlsin, Şuşa gəlsin!

*Oxucular tərəfindən Mustafa Çəmənlinin "Xallı Gürzə" əsərindən qısa bir səhnəcik təqdim olunur. Səhnədə Qarabağ xanı Pənah xanın iqamətgahı təsvir olunur. Çapar və Pənah Xan obrazlarını ifa edən iki oxucu daxil olur.*

I oxucu (Çapar): Xan sağ olsun, düşmən Əsgəranı keçdi.
II oxucu (Pənah Xan): Çoxdular?
I oxucu ( Çapar): Torpağın sayı qədər.
II oxucu (Pənah Xan): Çox oldu.
I oxucu (Çapar): 30-40 min olarlar.
II oxucu (Pənah Xan): İndi ağlabatandır.

*Çapar gedir, oxucu – Lütfəli bəy səhnəyə gəlir.*

III oxucu (Lütfəli bəy): Ağa, Çapar nə xəbərlə gəlib?

II oxucu (Pənah xan): Deyir Əsgəranı keçiblər. Neyləyək?
III oxucu (Lütfəli bəy): Qabaqlarına çıxaq.
II oxucu (Pənah xan): Hələlik bizə açıq döyüşə girmək olmaz.
III oxucu (Lütfəli bəy): İndi onlar hücuma keçərlər.
II oxucu (Pənah xan): Keçməzlər. Bu gün səngərlənəcəklər. Alaçıqlar qurulacaq. Nə olub sənə, Lütfəli bəy, elə bil vuruşmağı unutmusan. Hücuma keçmək sənə beləmi asan gəlir?
III oxucu (Lütfəli bəy): Yox, dayı, düzü darıxıram.
II oxucu (Pənah xan): Özünü darıxdırma, davamız uzun çəkəcək. Uşaqlara xəbər göndərin sayıq olsunlar.
III oxucu (Lütfəli bəy): Yaxşı. Deyəsən, Məhəmmədhəsən xanın elçiləri gəlib.
II oxucu (Pənah xan): Nə tez, çağır gəlsinlər.

*Səhnəyə daha bir oxucu daxil olur.*

IV oxucu (elçi): Biz Məhəmmədhəsən xan Qacarın elçiləriyik.
II oxucu (Pənah xan): Bilirəm.
IV oxucu (elçi): Xanımız buyurdu ki, müsəlman qanı tökməyək.
II oxucu (Pənah xan): Qan tökmək istəməyən durub. Astrabaddan bura gəlməzdi.
IV oxucu (elçi): Xan sağ olsun, bilirsiniz, məmləkət Nadir şah rəhmətlikdən sonra pərakəndə haldadır. Həşəmətli xanımız bu pərakəndəliyə son qoymaq istəyir.
II oxucu: (Pənah xan): Çox gözəl, bəs xanınız məndən nə istəyir?
IV oxucu (elçi): İtaət! Xanımız istəyir, siz xanlığınızla, qoşununuzla, torpağınızla onun tərəfinə keçəsiniz.
II oxucu (Pənah xan): Xanınıza söyləyin: Mən xanlıq yaratmamışam ha, onu kiməsə bağışlayım. Bir də xəbəri o, Arazın o tayından da göndərə bilərdi. Üstümə qoşun çəkməklə bu dostluq telini qırdı. İstəyirsə dost olaq, qoşununu geriyə çəksin, torpağımdan çıxsın.
IV oxucu (elçi): Heç yaxşı olmadı, xanımız bu yoldan geri dönməz.

II oxucu (Pənah xan): Qarabağ xanı Pənahəli xan Sarıcalı Cavanşir də bir addım geri dönən deyil. Qılınc çəkənin qabağına topla çıxacam. Gedin dediklərimi xanınıza söyləyin.

*Elçi getdikdən sonra xan oturanlara üzünü tutdu.*

II oxucu (Pənah xan): Gərək, Əsgəranda qalanı tikmiş olaydıq. İndi bunların qabağını orada kəsərdik. Pənahabad bizim axırıncı sığınacağımız olmalıydı. Nə isə, Allah qoysa, başımız açılan kimi Əsgəran qalasını tikərik.
III oxucu (Lütfəli bəy): Allah qoysa.
II oxucu (Pənah xan): Yaxşı gedin keşikçilərə baş çəkin. Mehralı ağaya, Fəzləli bəyə, Lələ Cəfərə xəbər göndərin hazır olsunlar. Düşmən qapının ağzındadır.

*İştirakçılar səhnədən gedir. Məhəmmədhəsən xan Qacar və onun nökəri səhnəyə daxil olur.*

I oxucu (nökər): Ağa, gələn var.
II oxucu (Qacar): Kimdi?
I oxucu (nökər): Yerlidir.
II oxucu (Qacar): Kimsən?
III oxucu: (Erməni tərəfindən göndərilən elçi). Məlik Məcnunam.
II oxucu (Qacar): Nəyə gəlmisən?
III oxucu (elçi): Qurbanın olum xan, sizi deyib gəlmişəm. Bu Pənah xan mənim atam Məlik Hətəmin düşmənidi... Bütün məliklərin düşmənidir. Hə, hə bütün erməni məliklərinin...
II oxucu (Qacar): Ona neynəmisiniz ki, belə düşməniniz olubdu?
III oxucu (elçi): Biz heç nə... İstəmirdik o, xan olsun... Hə, istəmirdik.
II oxucu ( Qacar): Niyə özünüz xan olmaq istəyirdiniz?
III oxucu (elçi): Yox, yox. Biz istəyirdik ki, sizin kimi əsli-nəsli olan, nəcabətli bir adam xanımız olsun.

II oxucu (Qacar): Pənah xan da əsli-kökü olan nəcabətli adamdı. Xanlıq ona yaraşır. Mənim qovğam xan qovğası deyil, kirvə. Bu cür işləri sizdən az bilmirəm. Məxləs, məramın nədi, onu söylə.
III oxucu (elçi): Sənə fəda olum, başına fırlanım, qoy bu keçilməz dağlarda sənin bələdçin olum. Beş yüz də qoşun hazırlamışam... Qoy intiqamımı alım. O Pənah xanın başını öz əlimlə kəsim atım ayaqlarının altına.
II oxucu (Qacar): Yox, kirvə yaxşısı budur, sən qayıt Gülüstana.
III oxucu ( elçi): Niyə?
II oxucu (Qacar): İki müsəlman xanın arasına girməyi sənə məsləhət görmürəm.
III oxucu (elçi): Məən...
II oxucu (Qacar): Dedim ki, məsləhət bilmirəm. Ətlə dırnağın arasına girən irinləyib çıxar. Əzilərsən, get.
III oxucu (elçi): Mən istəyirəm...
II oxucu (Qacar): Sən çox şey istəyirsən.
III oxucu (elçi): Hər ikimiz bir şey istəyirik!
II Oxucu (Qacar): Xeyr! Əsla! Sən intiqam almağa gəlmisən, mən birlik uğrunda qılınc çalmağa.
III  oxucu (elçi): Hər iki halda qan tökülür.
II oxucu ( Qacar): Doğrudur, amma baxır bu qan necə tökülür, kim üçün, nə üçün, nəyin naminə tökülür.
III oxucu (elçi): Baxarsınız, siz ki, belə başlamısınız, qalanı ala bilməyəcəksiniz.
II oxucu (Qacar): Xəyanət əliylə alınan qala mənə gərək deyil. Gedin! Elçiyə zaval yoxdu, yoxsa...

*İştirakçılar çıxışlarını bitirdikdən sonra aparıcılar yenidən səhnəyə daxil olurlar.*

**II aparıcı:** Bəli, bu zavallılar tarix boyu qonşularının torpaqlarına tamah salıblar. Hər zaman çalışıblar ki, xəyanət yolu ilə özlərinə sığınacaq tapsınlar. Lakin bunu bacarmayacaqlar. Torpaqlarımızın müəyyən hissəsini zəbt etsələr də, tezliklə torpaqlarımız özümüzə qaytarılacaq. Çünki

vətənimizin ər oğulları vətən keşiyində pusquda durublar. Ümidvarıq ki, ölkə rəhbərinin dəstəyi və vətən övladlarının şücaəti ilə Qarabağımız tezliklə yenə də bizim olacaq.
**I aparıcı:** Torpaqlarımızı qram-qram birləşdirib, göz bəbəyi kimi qoruyaraq gələcək nəsillərə çatdıran görkəmli tarixi şəxsiyyərlərimiz Şah İsmayıl Xətayi, Pənah xan kimi sərkərdələr olmuşdur. Bəlkə də, onlar nə vaxtsa torpaqlarımızın düşmən əlinə keçməsini ağıllarına belə gətirməzdilər.

*Səhnəyə Şah İsmayıl Xətai, Qarabağ xanı Pənah xan, Dədə Qorqud adından danışan üç nəfər oxucu daxil olur.*

**II aparıcı:** Şah İsmayıl başını qaldırdı və Şuşa qalasından düşmən gülləsindən deşik-deşik olmuş uçuq evlərə, neçə illərdir yağı düşmənin tapdağı altında inləyən sanki doğma xalqına, vətənin mərd oğluna səslənən, ondan kömək istəyən, onu bu faşistlərin əlindən qurtarmasını diləyən doğma torpağa baxdı və fikrə getdi.
**Şah İsmayıl:** Bu torpaq uğrunda dəfələrlə yağı düşmənlər müharibə ediblər. Amma zaman da, çərxi fələk də dəhşətlidir, heç bir şeylə hesablaşmır sökür, dağıdır, götürüb aparır. Ən yaxşı niyyətlər, işlər körpü kimi kərpic-kərpic, daş-daş uçurulub, tikən, quran, davam etdirən isə azdır.
**Pənah xan:** Yox, zaman dağıdırsa, təzə nəsillər də gəlir. O nəsillər dağılanları düzəltməli, yenilərini tikməli, bərpa etməlidirlər. İşə elə başlamalıdırlar ki, çərxi-fələk özü aciz qalsın, belə olsa bir nəslə, bir tayfaya gücü çatar, bütün insanlığa isə çətin. Bir şərtlə ki, o insanlıq getdikcə kamilləşsin, nurlaşsın, öz nuru ilə zülmətdən yarananları belə işığa çevirsin.

*Bu zaman Dədə Qorqud asta-asta səhnəyə daxil olur və üzünü hər iki sərkərdəyə* tutur.

**Dədə Qorqud:** Sizin hər birinizin zəkanız, qəhrəmanlığınız, sərkərdəliyiniz, ağlınız dünyaya meydan oxuyurdu. İşığınız zamanların, əsrlərin gözlərini qamaşdırırdı, dişinizlə,

dırnağınızla bu torpağı qorudunuz, gələcək nəsillərə ötürdünüz. Lakin vaxtilə siz xanlar bəzi səhvlərə yol verdiniz. Bu səhv xanlıqlar arasında olan çəkişmələr idi. İrəvanınıza, Göyçənizə, Qarabağınıza, hətta Şirvanınıza doğru sürünən və içinizdən dolanıb keçən Xallı Gürzəni görmədiniz. İndi ulu babalarımızdan yadigar qalan torpaqlarımızın bir hissəsi düşmən tapdağı altında inləyir. Artıq Cıdır düzündə qəhrəmanlar at çapmır, artıq Xarı bülbülümüz qönçə açmır.
**Şah İsmayıl:** Dədəm Qorqud! Gəl, içindəki ümidi tamamilə məhv etmə, bu qədər kədərlənmə. Çünki bu torpağın, bu ölkənin övladlarının damarlarında Azərbaycanlı qanı axır. Onlar mənim kimi, Babək kimi, Koroğlu kimi igidlərin nəvələridir. Heç bir zaman torpağımızın düşmən tapdağı altında qalmasına razı olmazlar. Onlar torpaqlarımızı mütləq geri qaytaracaqlar. vətənin, insanların yarası yavaş-yavaş sağalacaq, cismani əzablarımız da yaddan çıxacaq. Ancaq mənəvi yaralarımız, mənəvi əzablarımız çətin ki, qaysaq bağlaya...
**Pənah xan:** Torpaqlarımızı, Azərbaycanımızı birləşdirmək lazımdır. Əgər belə olmazsa, Qarabağımızı geri qaytarmaq mümükün olmaz.
**Şah İsmayıl:** Bu mütləq lazımdır. Hətta mən döyüşlərimin birində sərkərdələrimin vətənə nə dərəcədə bağlı olduğunu, onları sınamaq üçün soruşdum:
– Siz Aərbaycan paytaxtını istəyirsiniz, yoxsa Gülüstan qalasını?
Sərkərdələr cavab verdi:
– Əlbəttə, Azərbaycanı, Azərbaycan paytaxtını istəyirik. Ümid edirəm ki, sərkərdələrimin bu davranışından bugünkü gənclərimiz ibrət götürəcəklər, doğma vətənimizi qanları bahasına da olsa azad edəcəklər.
**Pənah xan:** Bu gün Qarabağı geri qaytarmaq Azərbaycan varlığını, onun ərazi bütövlüyünü, torpaqlarımızın toxunulmazlığını bərpa etmək, Azərbaycan dövlətçiliyinə əbədiyyət qazandırmaq haqqımızı kimsə əlimizdən ala bilməz.

“Qarabağsız Azərbaycan yoxdur” deyənlər haqq yolundadır. Sarsılmaz Azərbaycan dövlətçiliyinin keşiyindədilər. Qarabağ uğrunda ədalətli mübarizəmiz öz həllini tapmayınca mənəvi yaralarımızın sağalacağından, fiziki şikəstliyimizin aradan qalxacağından hər hansı bir şəkildə danışmaq olmaz.

**Dədə Qorqud:** Vətən oğlu! Qarabağ bu gün bizim üçün Tanrı sınağı, qeyrət rəmzidir. Qarabağ bizim yaşam vəsiqəmizdir. Qarabağsız Azərbaycan ruhsuz candır. Bu gün Qarabağ milli qeyrət, milli özünüdərk, olum-ölüm yolu, gələcək nəsillər qarşısında məsuliyyət hissi deməkdir. Qarabağı unutsan, həyatınla, varlığınla, bu gününlə, sabahınla vidalaşmalı olacaqsan. Bu gün səni məhv etməyi, varlığını tarix səhnəsindən silməyi qarşısına məqsəd qoymuş, erməni-daşnak faşizmi ilə üz-üzəsən. Yurd-yuvanı, əcdadının uyuduğu torpağı müdafiə etmək, mənliyini qorumaq, yaşamaq və gələcəyini yaşatmaq sənin vəzifəndir. Bu mübarizə sənin yaşamaq haqqın, həyat seçimindir. Qan yaddaşını oyat! Tarixdən ibrət dərsi götürməyənləri tarix özü cəzalandırır!

*Sonra səhnədə başqa bir mənzərə təsvir edilir. Səhnəyə Azərbaycan əsgəri obrazını yaradan iştirakçı daxil olur. Əsgər şəhidlərin məzarını ziyarət etdikdən sonra Şah İsmayılın qəbrini ziyarət edir. O, məzarın yanında dayanaraq Şah İsmayılın ruhu ilə danışır. Bu zaman ruh obrazında bir iştirakçı səhnədə görünür.*

Ruh (Şah İsmayıl): Gəldin, oğlum?
Əsgər: Gəldim, babam!
Ruh (Şah İsmayıl): Erməni məkrlərinə əyilmədiniz ki?
Əsgər: Yox, əyilmədik, şah babam.
Ruh (Şah İsmayıl): Çoxmu qan töküldü?
Əsgər: Bəli, vətənimiz üçün canımızdan keçməyə hazırıq.
Ruh (Şah İsmayıl): Nahaq qan yerdə qalmaz.
Əsgər: Elədi.

Ruh (Şah İsmayıl): Çalışın bir yumruq kimi birləşin. Yalnız o zaman torpaqlarınıza sahib çıxa biləcəksiniz.

*İştirakçılar səhnəni tərk etdikdən sonra aparıcı səhnəyə daxil olur.*

**II aparıcı:**

Bu da ürəyin əmri,
Bu da zamanın hökmü,
Bir də, bir də anamız
Azərbaycanın hökmü:
– Qarabağa uzanan,
Uzandıqca əl qarsılan, üz yanan
Hər qara əli kəsək!
Yüz il sonra
Nəvəmizin nəvəsi də,
Azərbaycan torpağının
Hər dərəsi, təpəsi də,
Bir də, bir də kükrəməsin
Qəzəbli dağ selitək:
– Qarabağdan əlini çək!
– Qarabağdan əlini çək!

**I aparıcı:** Bu gün vətənimizin keşiyində duran bir çox gənclərimiz var. Hal-hazırda onların sayəsində torpaq üzərində rahat gəzirik. Bunun üçün onlara borcluyuq. Onlar ən müqəddəs borclarını yerinə yetirirlər. Vətənə olan borclarını! Məhz bu gənclər haqda ümummilli lider Heydər Əliyev demişdir: “Orduda xidmət edən gənclər bizim dəyərli vətəndaşlarımızdır. Onların əksəriyyəti gənclərdir. Onlar vətəni qoruyurlar, düşmənlə üzbəüz mövqedə dayanırlar, Azərbaycanın müstəqilliyini qoruyur və möhkəmləndirirlər. Lazım gələn anda məhz onlar doğma torpaqlarının azad olunması üçün ilk addımı atacaqlar”.

**II aparıcı:** Şəhidlər xiyabanı respublikamızın bütün məktəbliləri üçün əsl birlik və həmrəylik, mərdlik və cəsarət məbədinə çevrilib. Ulu öndərimizin dediyi kimi, “Biz hərbi

vətənpərvərliyi hər şeydən öncə Şəhidlər xiyabanında əbədiyyət yuxusuna getmiş, bugünkü azadlıq və müstəqilliyimizin polad təməlçiləri olmuş, öz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə şanlı səhifələr yazmış igidlərimizdən öyrənməli, onlardan ibrət götürməliyik”.

**I aparıcı:** Şəhidlər tarixin sönməyən çıraqlarıdır. Onlar daim azadlıq uğrunda çırpınan yolumuza işıq saçırlar. Vətən yolunda, milllət yolunda şəhid olanlar ölməzdir. Vətən Təbriz kimi, Çingiz kimi, Əlif kimi, Mübariz kimi, Salatın kimi... qəhrəmanlarını heç vaxt unutmayacaq. Bu gün Azərbaycan gələcəyə inamla baxır. Möhkəm özülü Heydər Əliyev tərəfindən qoyulmuş dövlətimizin taleyi etibarlı əllərdədir. Heydər Əliyev kürsüsünün layiqli davamçısı, Prezident İlham Əliyev ölkəmizi gələcəyə, yeni uğurlara inamla aparır.

**II aparıcı:** Hazırda Azərbaycan adlanan müstəqil dövlətimiz, Azərbaycan dili adlanan vahid dilimiz var. Zəngin tarixi keçmişi, ümumbəşəri dəyərləri öz mentalitetində əks etdirən Azərbaycan xalqının firavan yaşamağa haqqı var. Bu haqqa sahib olmaq üçün Azərbaycanın xoşbəxt gələcəyini görmək istəyən bütün qüvvələr birləşməlidir. Tarix bu gün yaranır. Onu nə keçmişdə, nə də ki, gələcəkdə yaratmaq mümkündür. Tarix dönməzdir, burada hər anın öz qiyməti var, gəlin, biz də tariximizi qoruyaq. Qoruyaq ki, bizdən sonrakı nəsillər öz tarixi keçmişi ilə fəxr etsinlər.

**I aparıcı:** Artıq Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artmışdır. Ulu öndərimizin müəyyən etdiyi yolla gedən xalqı heç şübhəsiz ki, nurlu sabah, bolluq, firavanlıq, əmin-amanlıq gözləyir. Azərbaycana inamla rəhbərlik edən Prezident İlham Əliyev ulu öndərin xilas edib inkişaf yoluna çıxardığı dövləti daha da möhkəmləndirib, onun müstəqil siyasət yeritməsini təmin edib. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil ölkədir. Azərbaycan dünyəvi ölkədir. Eyni zamanda, Azərbaycan inkişaf edən ölkədir. “Azərbaycan demokratik inkişaf baxımından çox sürətlə irəliyə gedir”, deyən İlham

Əliyevin fəaliyyətinin təhlilinə nəzərən əminliklə demək olar ki, ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin davam etdirilməsi ictimai zərurət olmaqla yanaşı, Azərbaycanın dövlət müstəqilliyinə əbədi təminatdır.

**II aparıcı:** Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan dünya birliyində öz mövqelərini daha da möhkəmləndirmiş, yeni müttəfiq ölkələr qazanmış, beynəlxalq və regional təşkilatlarda iştirakını, onlarla əməkdaşlığını daha da intensivləşdirmiş, inkişaf sürətinə, iqtisadi potensialına görə Cənubi Qafqazda lider dövlətə çevrilmiş, dünya birliyinin sayılan dövlətlərindən biri olmuşdur.

*Tədbirin sonunda Əhməd Cavadın "Çırpınırdın Qara Dəniz" adlı şeirinə yazılmış musiqi oxucuların ifasında səslənir.*

Çırpınırdın Qara dəniz, baxıb Türkün bayrağına,
Ah edərdim, heç ölməzdim düşə bilsəm ayağına.
Sırmalar saçsam soluna, incilər töksəm yoluna,
Vəfalı türk gəldi deyə yol ver Türkün bayrağına.
"Hamidiyə" ol Türk qanı, heç vaxt bilməz onun şanı,
"Kazbek" oldu qurbanı, əyil Türkün bayrağına.
Dost elindən əsən yellər, mənə şeir salam söylər,
Olsun bizim bütün ellər qurban Türkün bayrağına.
Tufan kimi coşacağız, Qafqazları aşacağız,
Azərbaycan bayrağını Qarabağdan asacağız.

## Ədəbiyyat siyahısı

### *Elmi-kütləvi ədəbiyyat*

**Atilla**. - Bakı : Altun kitab, 2007. - 15 s. : rəngli şək. - (Tarixi yaradanlar. Hökmdarlar və sərkərdələr. Orta əsrlər tarixi).

**Babazadə E. T.** Gəncə xanlığının tarixindən - Bakı : Şərq-Qərb, 2012. - 428 s. : cədv., xəritə, rəngli il. - Azərbaycan və rus dillərində.

**Bayandur İ.** Qana bələnmiş tarix. - Bakı : Qanun, 2007. - 358 s. : şək.

**Çingizoğlu Ə.** Cəfərqulu xan Sarıcalı-Cavanşir : tarixi-bioqrafik tədqiqat - Bakı : Mütərcim, 2011. - 72 s. : rəngli foto.

**Çingizoğlu Ə.** Hüseynqulu xan Qovanlı-Qacar : tarixi-bioqrafik tədqiqat. - Bakı : Mütərcim, 2011. - 88 s. : portr., il.

**Elxan E. M.** Zəbunçu Razin. - Bakı : Apostrof, 2009. - 119 s. : xəritə, il.

**Əfəndiyev O.** Azərbaycan Səfəvilər dövləti. - Bakı : Şərq-Qərb, 2007. - 344, [8] s. : rəngli il., xəritə. - (Azərbaycan dili və tarixi).

**Əliyev Ə.** Əlincə yaddaşı. - Bakı : Elm və həyat, 2004. - 316 s.

**Həsənli C.** Tarix keçmişdən gələcəyə : Uşaq ensiklopediyası. - Bakı : Ayna Mətbu Evi, 2004. - 95 s. - (Ayna Uşaq ensiklopediyası).

**Hidayətqızı S.** Yüz türk qadını.I kitab. - Bakı : Apostrof, 2012. - 320 s. : foto, rəngli foto.

**Hüseynli A.** Qədim Türk hökmdarları. - Bakı : Nərgiz, 2013. - 96 s. : foto, rəngli foto. - (Məktəb kitabxanası ; 9).

**İlkin Q.** Bakı və bakılılar. - Bakı : Nurlar, 2006. - 384 s. : foto.

**Qarabağnamələr.** I kitab. - Bakı : Şərq-Qərb, 2006. - 216 s.. - (Azərbaycan dili və tarixi).

**Qarabağnamələr**. II kitab. - Bakı : Şərq-Qərb, 2006. - 288 s

**Qay Yuli Sezar**. - Bakı : Yeni nəsil, 2001. - 15 s. : rəngli şək.. - (Tarixi yaradanlar. Qədim dünya tarixi).

**Qocayev Ə.** Uzun Həsən. - Bakı : Altun kitab, 2007. - 15 s. : rəngli şək., xəritə. - (Tarixi yaradanlar. Hökmdarlar və sərkərdələr. Orta əsrlər tarixi).

**Mahmudov Y.** Şuşa - Pənahabad. - Bakı : Təhsil, 2012. - 152 s. : rəngli foto, xəritə.

**Makedoniyalı İskəndər**. - Bakı : Yeni nəsil, 2001. - 15 s. : rəngli il. - (Tarixi yaradanlar. Hökmdarlar və sərkərdələr. Qədim dünya tarixi).

**Məlikov R.** Məktəblinin tarix lüğəti. - Bakı : Ayna Mətbu Evi, 2004. - 367 s. : xəritə, rəng.il.

**Mustafazadə T.** Qarabağ xanlığı. - Bakı : Sabah, 2010. - 333 s.

**Nəfisi S.** Babək. - Bakı : Xatun Plyus, 2010. - 156 s.

**Oğuz Y.** Türkün gizli tarixi. - Bakı : Apostrof, 2009. -  496 s.

**Oğuz Y.** Türkün tarixinə yeni bir baxış : elmi-publisistik əsər. - Bakı : Olaylar, 2007. - 204 s.

**Pakrəvan Ə.** Abbas Mirzə və Azərbaycan. - Bakı : Qanun, 2007. - 208 s.

**Rüstəmov C.** Qobustan-Azərbaycanın qədim mədəniyyət ocağı = Gobustan -The Ancient Centre of Azerbaijan Culture. - Bakı : Nurlar, 2006. - 96 s.

**Şükürov K.** Türkmənçay - 1828 : tarixi xronika = Turkmanchay- 1828 : The Hiostorical chronicle. - Bakı : Çaşıoğlu, 2006. - 188 s.

**Tarixi Azərbaycan dövlətləri** = Azerbaijani States in History = Statele Istorice DIN Azerbaidjan = Історичні Азербайджанські держави = ისტორიული აზერბაიჯანული სახელმწიფოები. - Bakı : CBS Polygraphic production, 2012. - 240 s. : xəritə, rəngli il. - Azərbaycan, ingilis, erməni, gürcü, moldav və Ukrayna dillərində.

**Vəlidi T.** Azərbaycan. - Bakı : Ocaq, 2007. - 88 s.

***Bədii ədəbiyyat***

**Abbas A.** Batmanqılınc : Roman. - Bakı : Qanun, 2011. - 280 s. - (Azərbaycan nəsri).

**Banin (Ümmülbənin).** Qafqaz günləri : avtobioqrafik roman. - Bakı : Qafqaz, 2006. - 240 s. : foto. - (Qafqazın klassikləri).

**Çəmənli M.** Xallı gürzə : tarixi roman. - Bakı : Kitab klubu, 2016. - 392 s.

**Çəmənli M.** Ölüm mələyi : tarixi roman. - Bakı : MHS-poliqraf, 2012. - 296 s. : rəngli foto.

**Çəmənli M.** Şəmsəddin Eldəniz : nağıl - Bakı : Beşik, 2009. - 34 s. : rəngli il. - (Mən və mənim dünyam).

**Hüseynbəyli E.** Şah Abbas. - Bakı : Qələm , 2014. - 167 s. - (Məktəblilər üçün = Tarixi şəxsiyyətlər).

**Hüseynov İ. (Muğanna).** Məhşər. - Bakı : Çaşıoğlu, 2009. - 224 s. : portr. - (Azərbaycan Ədəbiyyatı).

**İsayev Ə.** Gəncə və gəncəlilər : Roman- xronika (tarix, insanlar, talelər).- Bakı : Çaşıoğlu, 2008. - 596 s.

**Kərimzadə F.** Çaldıran döyüşü : roman. - Bakı : Kitab klubu, 2016. - 368 s.

**Kərimzadə F.** Qarlı aşırım : tarixi roman. - Bakı : Kitab klubu, 2016. - 400 s.

**Kərimzadə F.** Xudafərin körpüsü : tarixi roman. - Bakı : Çaşıoğlu, 2007. - 328 s. : portr. - (Azərbaycan Ədəbiyyatı).

**Qoçu Nəcəfqulu** : bioqrafiya / tərt.ed. N. Rzayeva. - Bakı : [s. n.], 2008. - 104 s.

**Nicat Ə.** Şah İsmayıl. - Bakı : Gənclik, 1994. - 16 s.

**Oğuz Y.** Attila : pyes və şeirlər. - Bakı : Apostrof, 2008. - 176 s.

**Oğuz Y.** Əmir Teymur. I kitab : Zirvəyə doğru. - Bakı : Apostrof, 2011. - 368 s. : rəngli foto.

**Oğuz Y.** Əmir Teymur. II kitab : Dünyanın hakimi : tarixi roman. - Bakı : Apostrof, 2012. - 360 s. : rəngli foto.

**Oğuz Y.** Nadir şah : tarixi roman. - Bakı : Apostrof, 2008. - 576 s. : xəritə, rəng.il.

**Oğuz Y.** Sultan Alp Arslan : tarixi roman. - Bakı : Ol, 2015. - 288 s. : il.

**Oğuz Y.** Təhmasib şah : tarixi roman. - Bakı : Apostrof, 2009. - 504 s. : portr., xəritə.

**Ordubadi M. S.** Dumanlı Təbriz : roman. I kitab : I və II hissələr. - Bakı : Təhsil, 2012. - 376 s. : portr.

**Ordubadi, M. S.** Dumanlı Təbriz : II kitab. III-IV hissə. - Bakı : Təhsil, 2012. - 720 s.

**Ordubadi M. S.** Qılınc və qələm. I hissə. - Bakı : Şərq-Qərb, 2005. - 344 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

**Ordubadi M. S.** Qılınc və qələm. II hissə. - Bakı : Şərq-Qərb, 2005. - 416 s.  - (Müasir Azərbaycan ədəbiyyatı).

**Rüstəmxanlı S.** Difai Fədailəri : roman. - Bakı : Qanun, 2010. - 448 s.

**Rüstəmxanlı S.** Göy tanrı : roman. - Bakı : [s. n.], 2005. - 416 s.

**Rüstəmxanlı S.** Ölüm zirvəsi : roman. - Bakı : Qanun, 2007. - 556 s.

**Tahir M.** Şeyx Şamil  : Xatun Plyus, 2010. - 131 s.

# Doğma Azərbaycanımızın tarixini öyrənək

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh., S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 46
Çapa imzalanmışdır: 12.07.2018
Tirajı:100
Pulsuz